QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 083 (5803) **8 may** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**



*“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir*

# İlham Əliyev: “Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan rayonuna səfər ediblər*



Səh 2

5

Bakıda Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin II toplantısı keçirilib



6

YAP-nın Mərkəzi Qərargahında rəsm sərgisi keçirilib



4

Əli Həsənov: “Türk Şurasına üzv dövlətlər arasında informasiya sahəsində inteqrasiyanın gücləndirilməsi labüddür”



# İlham Əliyev: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan rayonuna səfər ediblər*



## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasında müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qobustan rayonunun Sündü kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qobustan şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qobustan rayonunun Bakı-Şamaxı-Yevlax (88 km)-Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda və 2017-ci il 24 may tarixli 1418 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.



***Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan rayonuna səfərə gəliblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.***

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov rayonda görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan-Poladlı avtomobil yolunun açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi. Bildirildi ki, 5 min nəfərin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Qobustan-Poladlı avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin 2018-ci ildə imzaladığı Sərəncama əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat vəsait ayrılıb. İki hərəkət zolaqlı yolun ümumi uzunluğu 14,5 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Dördüncü texniki dərəcəli yolun inşası zamanı müxtəlif diametrli 7 suötürücü boru quraşdırılıb, zəruri yerlərdə yol nişanları, göstərici lövhələr, siqnal dirəkləri qoyulub, yol cizgi xətləri çəkilib. Yolun inşası texnoloji ardıcıllığa uyğun və yüksək keyfiyyətlə həyata keçirilib. Qobustan-Poladlı yolu bu bölgədə yaşayan insanların Bakı-Şamaxı-Yevlax avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməsinə imkan yaradıb. Bu layihənin icrası sürücülərin təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də Qobustan Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak ediblər.



Ardı Səh. 3

# İlham Əliyev: “Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan rayonuna səfər ediblər*

Əvvəli Səh. 2

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi. Səhiyyə naziri Oqtay Şirəliyev görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, Qobustan Rayon Mərkəzi Xəstəxanasının fəaliyyət göstərdiyi bina 1965-ci ildə Mərəzə Qəsəbə Xəstəxanası qismində istifadəyə verilib və 1991-ci ildən isə Qobustan Rayon Mərkəzi Xəstəxanası kimi fəaliyyət göstərib. Rayon Mərkəzi Xəstəxanası üçün yeni binanın tikintisinə 2014-cü ildə başlanılıb. İnşaat işləri 2018-ci ildə başa çatdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xəstəxanada yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, 90 çarpayılıq Qobustan Rayon Mərkəzi Xəstəxanasının inşası müasir səviyyədə və yüksək keyfiyyətlə həyata keçirilib. Xəstəxananın ümumi ərazisi 2,6 hektardan çoxdur. Burada əsas korpusla yanaşı, terapiya və təcili-tibbi yardım binası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Qobustan Rayon Şöbəsinin binaları inşa olunub. Xəstəxanada əsasən Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyədən alınan müasir tibbi avadanlıq quraşdırılıb. Bu avadanlığın hər biri istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Xəstəxanada cərrahiyyə, terapiya, təcili tibb yardım, doğum və ginekologiya, uşaq xəstəlikləri, poliklinika, infeksiya xəstəlikləri, şüa-diaqnostika (radiologiya), reanimasiya və digər şöbələr fəaliyyət göstərəcək. Laboratoriyada müayinələri yüksək dəqiqliklə və qısa müddətdə aparmaq üçün hərtərəfli şərait var. Hazırda xəstəxanada 26 həkim və 51 orta tibb işçisi çalışır.





Qobustan Rayon Mərkəzi Xəstəxanasında yaradılan şərait bir daha sübut edir ki, son illərdə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində müasir tibb müəssisələrinin yaradılması, mövcud tibb ocaqlarının yüksək səviyyədə yenidən qurulması istiqamətində olduqca vacib layihələr icra edilir. Bütün bu işlər səhiyyə sisteminin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımların mühüm tərkib hissəsidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu tibb ocağının kollektivi ilə görüşdülər. Xəstəxananın kollektivini təbrik edən Prezident İlham Əliyev bildirib ki, ölkəmizin hər bir yerində yeni xəstəxanalar tikilir. Son illər ərzində 640-dan çox müasir tibb müəssisəsi yaradılıb. Bunun əsas məqsədi vətəndaşlara xidmət etməkdir:

“Burada quraşdırılan avadanlıq, yaradılan şərait ən yüksək standartlara cavab verir. Ən qabaqcıl ölkələrdəki xəstəxanalarda hansı müasir avadanlıq varsa, burada da var. Əsas məsələ ondadır ki, xəstələrə burada çox gözəl xidmət və qayğı göstərilməlidir. Əminəm ki, siz bunu təmin edəcəksiniz. Mənə verilən məlumata görə, burada həkimlər, tibb heyəti üçün 70-dən çox iş yeri yaradılıb. Yəni, bu xəstəxananın açılması bir daha bizim uğurlu siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və sosial sahə prioritet sahədir.

Bu il altı milyona yaxın insan dövlət xətti ilə müayinədən keçəcək. Biz bu proqramı bir neçə ildir ki, uğurla icra edirik. Hesab edirəm ki, dünya miqyasında bu, artıq özünü tam doğrultmuş bir təcrübədir. Dövlət xəstəxanalar, diaqnostika mərkəzləri tikir, vətəndaşlara imkan yaradır ki, pulsuz müayinədən keçsinlər. Həm paytaxtda, həm böyük şəhərlərdə, həm də əhalisi o qədər də böyük olmayan rayonlarda bütün digər sosial obyektlər yaradılır.

Qobustan rayonunun əhalisi təqribən 50 minə yaxındır. Şəhərdə 7 min insan yaşayır. Baxın, rayonun inkişafı, infrastrukturun yaradılması, yolların çəkilməsi ilə bağlı nə qədər böyük işlər görülür. Hər bir bölgədə bütün sahələrdə inkişaf, müasir yanaşma olmalıdır, vətəndaşlara qayğı, diqqət göstərilməlidir. Bu gün biz bunun bariz nümunəsinin şahidiyik. Bu xəstəxana həm xarici görünüşü, həm də daxili tərtibatı baxımından göz oxşayır. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram.”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qobustan filialının açılışında iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müxtəlif əsrlərdə toxunan Salyan, Ağsu, İsmayıllı, Hacıqabul, Ağdaş, Göyçay, Şamaxı, Oğuz, Qəbələ, Qobustan xalçalarına baxdılar. Sonra dövlətimizin başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi. “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov görülən işlərlə bağlı dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, “Azərxalça” ASC-nin Qobustan filialının binasının ümumi sahəsi 1300 kvadratmetrə yaxındır. Dövlətimizin başçısının 2018-ci ildə imzaladığı Sərəncama əsasən Qobustan xalça istehsalı emalatxanasının tikintisi və təchizatına dövlət büdcəsindən 2 milyon manat vəsait ayrılıb. Qobustan şəhərinin mərkəzində yerləşən binada tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalçaçılarla görüşdülər.

Xalçaçılar: Xoş gəlmisiniz, cənab Prezident. Həmişə Siz gələsiniz.

Prezident İlham Əliyev:

- İlk növbədə, sizi peşə bayramınız münasibətilə təbrik edirəm. Çox şadam ki, bu peşə bayramı günlərində gözəl fabrikin açılışını qeyd edirik. “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti üç il bundan əvvəl mənim Sərəncamımla yaradılmışdır. Qarşıya vəzifə qoyulmuşdur ki, ölkəmizin bütün bölgələrində müasir xalça fabrikləri yaradılsın və bu istiqamətdə çox böyük işlər görülüb. Artıq 20 fabrik hazırdır. Ümumiyyətlə, 31 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Hesab edirəm ki, növbəti bir-iki il ərzində qalan fabriklər də istifadəyə veriləcək və beləliklə, Azərbaycan öz qədim sənətini yaşatmaq istiqamətində çox önəmli addım atmış olacaq.



Qobustan fabrikində 150 iş yeri yaradılıb. İşçilərin də mütləq əksəriyyəti qadınlardır. Bu, qadınlar üçün dövlət tərəfindən atılan çox böyük addımdır. Çünki qadınların iş yerləri ilə təmin olunması prosesi xüsusi əhəmiyyət daşıyır. Burada ən müasir avadanlıqlar quraşdırılıb, bütün vasitələr var. Əminəm ki, bu fabrik çox uğurla fəaliyyət göstərəcək. Burada işləyənlər də razı qalacaqlar.

Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək. Bildiyiniz kimi, bizim xalçalarımız dünyanın aparıcı muzeylərində nümayiş etdirilir. Xalçaçılıq bizim qədim sənətimizdir və əsrlər boyu biz bu sənəti yaşadırıq. Çox yaxşı haldır ki, bu sənət nəsildən-nəslə ötürülür. Burada təcrübəli xalçaçılar, gənclər işləyirlər. Əminəm, gənclər də bu işə böyük maraqla, həvəslə qoşulacaqlar ki, biz bu sənəti bundan sonra da əsrlər boyu yaşadaq və Azərbaycan öz xalçaçılıq sənətini dünyaya təqdim etsin. Bu, iş yerləri, qeyri-neft sektorunun inkişafı və ixracyönümlü məhsulun istehsalı deməkdir. Çünki bu gün ölkəmizin ümumi iqtisadi inkişafı qeyri-neft sektorunun inkişafı ilə sıx bağlıdır. İxracyönümlü məhsulların istehsalı bu gün prioritet məsələlərdən biridir.

Sonra Prezident İlham Əliyev müəssisədə toxunan ilk xalçanı kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin açılışında da iştirak ediblər. AZƏRTAC xəbər verir ki, “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1770 kvadratmetr olan məntəqə istehsalat və inzibati bölmədən ibarətdir. Dövlətimizin başçısının tapşırığı ilə “Azərxalça” ASC-nin filiallarının, ölkəmizdə fəaliyyət göstərən özəl xalçaçılıq müəssisələrinin yun ipliklə təmin olunması üçün mühüm tədbirlər görülür. Bu istiqamətdə həyata keçirilən layihələrdən biri Sumqayıt Kimya Sənaye Parkında “Azərxalça” ASC-nin yunəyirici-boyaq fabrikinin inşasıdır. Hazırda fabrikin tikintisi sürətlə davam etdirilir. Bu fabrikin xammalla təminatı məqsədilə Naxçıvan şəhərində, Bərdə, Qobustan, Şabran və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri yaradılıb. Son illər bu sahənin inkişafına göstərilən diqqət, ölkəmizin müxtəlif bölgələrində emalatxanaların fəaliyyətə başlaması xalça toxunması üçün xammal bazasının yaradılması zərurətini meydana çıxarıb. Bu baxımdan yunəyirici-boyaq fabrikinin və regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin yaradılması idxaldan asılılığı tamamilə aradan qaldıracaq. Tədarük məntəqələri heyvandarlığın inkişafına da öz təsirini göstərəcək. Bu, qoyunçuluq təsərrüfatlarının, fermerlərin yun satışı probleminin həllinə imkan verəcək. Dövlətimizin başçısı müəssisənin işçiləri ilə söhbət etdi. Sonda xatirə şəkli çəkdirildi.

# "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıb





***Mayın 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə təşkil olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdən öncə rəhbər təhsil işçiləri Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyublar.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

AZƏRTAC xəbər verir ki, "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimində Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, Milli Məclisin sədr müavini Bahar Muradova, digər dövlət rəsmiləri, deputatlar, təhsil müəssisələrinin, media qurumlarının rəhbərləri, təhsil ekspertləri, müəllim və şagirdlər iştirak ediblər.

Tədbir Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyasının xor kollektivinin ifasında dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Təhsil naziri Ceyhun Bayramov çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev təhsilin inkişafına daim böyük diqqət və qayğı göstərib, təhsilin inkişafı hər zaman Ulu Öndərin genişmiqyaslı fəaliyyətində prioritet sahə kimi mühüm yer tutub. Ümummilli Lider tərəfindən əsası qoyulan inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən nazir bu sahədə əhəmiyyətli işlərin görüldüyünü vurğulayıb. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası istiqamətində əldə edilmiş nailiyyətləri diqqətə çatdıran Ceyhun Bayramov qarşıda mühüm hədəflərin dayandığını da əlavə edib. Bildirib ki, peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, məktəbəqədər təhsillə əhatəlilik səviyyəsinin 90 faizə çatdırılması, ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində tədbirlər davam etdiriləcək.

Ceyhun Bayramov qeyd edib ki, dövlət başçısı tərəfindən həyata keçirilən ardıcıl siyasət nəticəsində ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrlar hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul olunub.

Təhsilin məzmununun gələcəyin çağırışlarına cavab verməsi və innovativ inkişafın təmin edilməsi baxımından yenilənməsinin mühüm prioritetlərdən olduğunu deyən nazirin sözlərinə görə, ümumi təhsildə təmayülləşmə istiqamətlərinin artırılması, növbəti tədris ilində 20 məktəbdə peşəyönümü təmayüllü siniflərin açılması hədəf kimi müəyyən edilib. Ceyhun Bayramov ümumi təhsil müəssisələrində mənəvi-psixoloji mühitin yaxşılaşdırılması, tərbiyə işinin səmərəli təşkili, məktəb-ailə münasibətlərinin düzgün qurulmasının ən vacib məsələlərdən olduğunu deyib.

Təhsil naziri bu müsabiqənin müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin zəngin irsinin, şərəfli ömür yolunun və fəaliyyətinin gənc nəsil tərəfindən davamlı olaraq öyrənilməsi məqsədilə keçirilən kütləvi və mühüm tədbirlərdən biri olduğunu vurğulayıb, müsabiqənin qaliblərini təbrik edərək onlara uğurlar arzulayıb.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov müsabiqənin əhəmiyyətini diqqətə çatdırıb. Dövlət başçısının rəhbərliyi ilə son illərdə təhsil sahəsində aparılan uğurlu islahatlardan söz açan Əli Əhmədov ənənəvi olaraq keçirilən bu müsabiqənin ümummilli liderin zəngin irsinin təbliğinə xidmət etdiyini bildirib.

# Ümummilli Liderə həsr olunan TEDxUNEC konfransı






***Mayın 7-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) ümummilli lider Heydər Əliyevə həsr edilən "Azərbaycan. Lider. Tərəqqi" mövzusunda TEDxUNEC konfransı keçirilib. Azərbaycanda Ulu Öndərə həsr olunan ilk TEDx tədbirində dövlət qurumlarının rəhbər şəxsləri, Milli Məclisin deputatları, ziyalılar iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, konfransda AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov "Liderlik fəlsəfəsi" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə ulu öndər Heydər Əliyevin fenomenal şəxsiyyəti və liderlik fəlsəfəsi, digər liderlərin şəxsiyyəti barədə söhbət açılıb. Liderliyin 21 prinsipindən söz açan məruzəçi müvafiq keyfiyyətlərin ulu öndər Heydər Əliyevdə bütünlüklə tamamlandığını vurğulayıb. Qeyd olunub ki, 6 minillik sivilizasiya tarixində böyük liderlər siyahısında Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin də adı var. Bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü dövlətidir. Ölkəmiz bütün sahələrdə uğur qazanır və bu nailiyyətlərin əsasında məhz Heydər Əliyevin dahi liderliyi dayanır. Prezident İlham Əliyev öz uğurlu siyasi fəaliyyəti ilə Ümummilli Liderin ən layiqli varisidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı "Azərbaycanın lideri" mövzusunda məruzəsində bildirib ki, hər bir dahi şəxsiyyət zamanın tələblərinə uyğun tarixi xidmətlər göstərir. Heydər Əliyevin adı tarixə qurucu lider kimi yazılıb. Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycanın deyil, dünya azərbaycanlılarının liderliyinə yüksəldib, onun ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib.

Sosial Tədqiqatlar Mərkəzinin idarə heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc "Liderin Azərbaycanı" mövzusunda məruzə ilə çıxış edib. Qeyd edib ki, ulu öndər Heydər Əliyev haqqında uzun illərdir fikir söylənilir, kitablar yazılır, sənədli filmlər çəkilir. Amma bütün bu yazılanlar və deyilənlər Heydər Əliyevin obrazını tam ifadə edə bilmir. Heydər Əliyev haqqında sonuncu fikri söyləmək mümkün deyil. Bu dahi şəxsiyyətə olan münasibət tarixdə artıq qəlibləşib. Ulu Öndərin liderlik keyfiyyətlərindən danışan məruzəçi Heydər Əliyev siyasi kursunun hər zaman yaşayacağına əminliyini ifadə edib. Tədbirdə UNEC Yaradıcılıq Mərkəzinin üzvləri Ulu Öndərə həsr olunan şeirlər səsləndiriblər.

## Əli Həsənov: "Türk Şurasına üzv dövlətlər arasında informasiya sahəsində inteqrasiyanın gücləndirilməsi labüddür"



Ermənistan-Azərbaycan münaqişəsi regionun və dünyanın ən çətin həll olunan münaqişələrindən biridir. Burada işğalçı və işğala məruz qalan tərəf var, hər şey aydındır. Buna görə də bizim türkdilli dövlətlərin informasiya dəstəyinə ehtiyacımız var. AZƏRTAC xəbər verir ki, bu fikirləri mayın 7-də jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov söyləyib.

Prezidentin köməkçisi qeyd edib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlər arasında informasiya sahəsində inteqrasiyanın gücləndirilməsi labüddür. 2016-cı ildə Aprel döyüşləri zamanı Azərbaycanın informasiya dəstəyinə ehtiyacı var idi. Ermənilərin təxribatları, onların bölgədə həyata keçirdiyi işğalçılıq siyasəti, Azərbaycanın mədəni və dini obyektlərini dağıtmasının regionda və dünyada nümayiş etdirilməsinə ehtiyac var idi. Ona görə, Türk Şurasına üzv dövlətlər belə məqamlarda bir-birinə dəstək verməlidir.

## Siyavuş Novruzov: "Bu gün Heydər Əliyev irsi hərtərəfli şəkildə davam etdirilir"



"Dünyada çox az ölkələr var ki, onlar müstəqil siyasət həyata keçirir. Azərbaycan da bu az ölkələr sırasındadır. Təbii ki, bütün bunları Ümummilli Liderin əsasını qoyduğu siyasət nəticəsində əldə etmək mümkün olub".

SİA-nın xəbərinə görə, bu fikirləri Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov deyib. YAP-ın icra katibinin müavinin sözlərinə görə, tarixə nəzər salsaq görərik ki, ən acınacaqlı müstəqillik 15 respublika arasında Azərbaycana qismət olub: "Baxmayaraq ki, Azərbaycan digərlərindən güclü idi, amma ölkəmiz ən çətin və ağır müstəqillik dövrü yaşayıb. Çünki, o vaxtki rəhbərlikdə olan insanlar fəaliyyətlərini xalqın rifahına, müstəqil dövlətin qurulmasına deyil, Ümummilli Liderin əvvəlki dövründəki fəaliyyətinin təhlilinə həsr edirdilər. Onlar ordu yaratmaq əvəzinə şər, böhtan atmaqla məşğul idilər. Lakin Ulu Öndər hakimiyyətə gəldikdən sonra bunlara son qoyuldu. Ulu Öndər Heydər Əliyev fəaliyyəti ilə bir daha sübut etdi ki, əgər bir şəxs qarşısına dövlətə xidmətçilik etməyi qoyubsa ona heç kim və heç nə mane ola bilməz. Bu gün bəziləri öz xidmətlərini başqa cür təqdim etməyə çalışırlar. Həmin şəxslər guya həmin dövrdə mövcud olan sistemin, dövlət quruluşunun düzgün olmadığı üçün fəaliyyətlərini təqdim edə bilmədiklərini bildirirlər. Lakin Ulu Öndər bunun üzərindən xətt çəkdi və sübut etdi ki, xidmət göstərmək üçün istəmək lazımdır".

Ulu öndər Heydər Əliyevin tələbələrin xaricdə oxuması istiqamətində əvəzolunmaz addımlar atdığını deyən S.Novruzov söyləyib ki, Azərbaycançılıq ideologiyası Ümummilli Lider tərəfindən hazırlanıb: "O kiçik bir dövlətin böyük prezidenti idi. Bütün ölkələrdə Ulu Öndərə olan hörmət çox yüksək idi. Ümummilli lider Azərbaycanı yüksək şəkildə təqdim edirdi. Onun atdığı ən gözəl addımlardan biri hakimiyyətinin davamlılığını təmin etməkdir. Bu, ilk növbədə YAP-ın yaradılması idi. Partiyanın ilk təşkilatı Bakı Dövlət Universitetində yarandı və daha sonra bütün rayonlara səpələndi".

Millət vəkili qeyd edib ki, Ulu Öndərin hakimiyyətə gəldiyi zamanla indiki Azərbaycanı müqayisə etsək yerlə göy qədər fərqi görə bilərik: "Prezident İlham Əliyev də Ulu Öndərin siyasi xəttini uğurla davam etdirir. Ümummilli lider özü də bildirirdi ki "Mən İlham Əliyevə güvənirəm və əminəm ki, O mənim yarımçıq qoyduğum işləri davam etdirəcək ".

Bu gün Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunduğunu xüsusi vurğulayan S. Novruzov vurğulayıb ki, qazanılan uğurlar Prezident İlham Əliyevin cəsarətli addımları nəticəsində əldə olunub: "Bu gün biz Heydər Əliyev irsinin hərtərəfli şəkildə davam etdiyini görürük və buna dəstək verməliyik ".

***Nailə Məhərrəmova***

# Bakıda Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin II toplantısı keçirilib

***Mayın 7-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin II toplantısı keçirilib.***

AZƏRTAC xəbər verir ki, Türk Şurasının baş katibi Bağdad Amreyev informasiya və media üzrə məsul nazirlərin və yüksək vəzifəli rəsmilərin ötən toplantısından sonra görülən işlər barədə məlumat verib. O, işçi qrupunun VII toplantısında müzakirə edilən məsələlərdən danışıb. Baş katib deyib ki, VII toplantıda Şuraya üzv dövlətlər üçün önəmli məsələlər müzakirə olunub.

Toplantıda çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib ki, on il bundan əvvəl Naxçıvanda yaradılan Türk Şurası üzv dövlətlərin maraqlarını ifadə edərək müxtəlif aspektlər üzrə fəaliyyət göstərir. Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin I toplantısı Qazaxıstanın Astana şəhərində keçirilib. Həmin toplantıda üzv dövlətlərin televiziya və informasiya qurumları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı mühüm qərarlar qəbul edilib və bu istiqamətdə xeyli iş görülüb. Bugünkü toplantıda da müzakirə olunan əsas məsələ dövlətlərimiz arasında mətbuat sahəsində əməkdaşlığın inkişaf etdirilməsidir. Bu əməkdaşlıq Avrasiya və dünya məkanında xalqlarımızın maraqlarının qorunmasına xidmət etməlidir.

Prezidentin köməkçisi qeyd edib ki, Şuraya üzv olan ölkələrin hər biri bərabərhüquqludur. Əməkdaşlıq mühiti Şuranın əldə etdiyi ən böyük nəticədir. Əməkdaşlıq istiqamətində bütün məsələlərə dəstək verməyə hazırıq.

Əli Həsənov vurğulayıb ki, televiziya sahəsində qarşılıqlı əlaqələr genişləndirilməli və dövlətlərin milli bayramları da efir vasitəsilə yayımlanmalıdır. Türk Şurasına üzv dövlətlərin aparıcı mətbuat orqanları, televiziyaları bir-biri ilə əlaqə qurub. Nəyə görə bizim televiziya kanallarının yerli kabel şəbəkələrində təmsilçiliyi təmin olunmur? Təəssüflər olsun ki, Azərbaycan televiziyalarının verilişlərinin nə Qazaxıstanda, nə də Qırğızıstanda yayımlanmasına rast gəlinmir. Təklif edirəm ki, Azərbaycanın dövlət və ictimai televiziyalarının verilişləri Türk Şurasına üzv dövlətlərdə yayımlansın. Eyni zamanda, həmin ölkələrin də dövlət və ictimai televiziyalarının verilişləri Azərbaycanda yayımlansın.

Prezidentin köməkçisi qeyd edib ki, vahid türkdilli televiziyanın yaradılması təşəbbüsü dörd ildir müzakirə olunur. Təəssüflər olsun ki, bu məsələ həllini tapmayıb. Mövcud televiziyalardan birinin türkdilli dövlətlərin vahid kanalına çevrilməsi, bu funksiyanın hansısa formada icra edilməsi



gündəlikdədir. TRT AVAZ kanalı bu mənada müzakirə obyektidir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Əli Həsənov qeyd edib ki, bu regionun və dünyanın ən çətin həll olunan münaqişələrindən biridir. Burada işğalçı və işğala məruz qalan tərəf var, hər şey aydındır. Bizim türkdilli dövlətlərin informasiya dəstəyinə ehtiyacımız var. Çünki zaman-zaman ermənilər öz təbliğatlarını həyata keçiriblər. Bu baxımdan Türk Şurasına üzv dövlətlər arasında informasiya sahəsində inteqrasiyanın gücləndirilməsi labüddür. Misal üçün, 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycanın informasiya dəstəyinə ehtiyacı var idi. Ermənilərin təxribatları, onların bölgədə həyata keçirdiyi işğalçılıq siyasəti, Azərbaycanın mədəni və dini obyektlərini dağıtmasının regionda və dünyada nümayiş etdirilməsinə ehtiyac var idi. Ona görə hesab edirəm ki, Türk Şurasına üzv dövlətlər belə məqamlarda bir-birinə dəstək verməlidir.

Prezidentin köməkçisi qeyd edib ki, bu gün dünyada islamofobiya meyilləri güclənir. İslam dininə qarşı çirkin kampaniya aparılır. Müsəlman ölkələri, xalqları terrorla eyniləşdirilir. Onların mövcud multikultural dəyərləri, mədəniyyətləri, gözəl adət-ənənələri mənfi çalarda təqdim edilir. Biz bu məsələdə də vahid mövqedən çıxış etməliyik.

Qazaxıstanın informasiya və sosial inkişaf nazirinin müavini Marad Azilxanov qeyd edib ki, ölkəsi Türk Şurasının üzvü olan dövlətlərin telekanallarının və informasiya agentliklərinin əməkdaşlığının genişləndirilməsini dəstəkləyir. O təklif edib ki, Şuraya üzv ölkələr Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin "Böyük Çölün yeddi özəlliyi" adlı məqaləsi ilə bağlı sənədli filmin çəkilməsinə dəstək versinlər. Nazir müavini, eyni zamanda, üzv dövlətlərin telekanallarında 4 ölkənin filmlərinin nümayiş olunması təklifini yüksək dəyərləndirib.

Qırğızıstanın Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri




Baxtımgül Novruzbayova bildirib ki, ölkəsi Şuraya üzv dövlətlərə aid xəbərlərin və videoların yayılmasını təmin edir. Qırğızıstan Türk Şurası ölkələrində baş verən hadisələrin operativ şəkildə geniş coğrafiyaya çatdırılmasında maraqlıdır. B.Novruzbayova vurğulayıb ki, media qurumlarının imicinin artırılması istiqamətində daha çox iş görülməlidir.

Türkiyə Prezidentinin baş müşaviri, mədəniyyət, informasiya və turizm nazirinin müavini, TRT-nin İdarə Heyətinin üzvü Mustafa Akış çıxış edərək deyib ki, 2009-cu ildə yaradılan TRT AVAZ türk xalqları arasında əməkdaşlığı daha da gücləndirdi. Bu kanal türk xalqlarına aid mədəniyyətin və tarixin dünya ictimaiyyətinə çatdırılmasında mühüm işlər görür. TRT AVAZ-ın hazırladığı verilişlər TRT-nin digər kanallarında da nümayiş olunur. TRT AVAZ-ın həyata keçirdiyi işlər bundan sonra da gücləndirilməlidir. Bunun üçün türk dünyasının dəstəyi artırılmalıdır.

Türk Şurasının baş katibinin müavini Ömər Kocaman işçi qrupunun VII toplantısında aparılan müzakirələr barədə məlumat verərkən qeyd edib ki, media qurumlarının əməkdaşlığının gücləndirilməsi üçün vahid şəbəkənin yaradılması qərara alınıb. Türk xalqlarının tarixi şəxsiyyətləri ilə bağlı filmlərin çəkilməsi təklifinin də irəli sürüldüyünü deyən baş katibin müavini bununla əlaqədar razılıq əldə olunduğunu bildirib. Bundan başqa, üzv ölkələrin televiziya kanallarının öz yayımlarını rahat şəkildə həyata keçirmələri üçün kabel yayımı ilə bağlı da müzakirələrin aparıldığı diqqətə çatdırılıb.

Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmov qeyd edib ki, bu gün Türk Şurası üçün vahid informasiya məkanı mövcud deyil. Bunun üçün Şuraya üzv dövlətlərin siyasi maraqları təmin olunmalıdır. Üzv ölkələrin telekanallarının kabel yayımı barter əsasında olmalıdır. Çünki kabel yayımı ilə məşğul olan qurumların biznes maraqları var.

Üzv ölkələrin filmlərinin nümayişinin tarixi günlərdə həyata keçirilməsinin məqsədəuyğun olduğunu deyən MTRŞ sədri bildirib ki, bunun sayəsində dövlətlər qarşılıqlı olaraq tarixləri ilə bağlı məlumat əldə edə bilərlər. Ortaq xəbər kanalının yaradılmasına gəldikdə, deməliyəm ki, bu, çox mürəkkəb prosesdir. Bu kanal üçün ortaq dil kimi türk dillindən istifadə edilməsi məqsədəuyğundur.

Toplantıya yekun vuran Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qeyd edib ki, türk coğrafiyasının dünyanın tanımalı olduğu şəxsiyyətləri var. Dünya bu cür şəxsiyyətləri daha yaxşı tanımalıdır. Bu tarixi şəxsiyyətlərlə bağlı filmlər türk, rus və ingilis dillərində olmalıdır. Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Mədəniyyət Nazirliyi bu məsələnin reallaşmasına dəstək verməyə hazırdır.

Prezidentin köməkçisi ortaq türk kanalı ilə bağlı bildirib ki, TRT AVAZ-ın tərkibində belə bir kanalın yaradılması məsələsi prezidentlərin qərarından asılıdır. O, "Euronews" nümunəsini misal çəkərək deyib ki, bu kanalda müxtəlif dövlətlərin səhmləri var.

İnformasiya agentliklərinin jurnalist və təcrübə mübadiləsinin əhəmiyyətindən danışan Əli Həsənov deyib ki, AZƏRTAC bu istiqamətdə səylər göstərir, tərəfdaş agentliklərlə yaxşı əlaqələr qurub.

Türk Şurasına üzv dövlətlər arasında xəbər platformasının yaradılmasının vacibliyinə toxunan Prezidentin köməkçisi qeyd edib ki, mətbuat nümayəndələrinin media forumlarının keçirilməsi tərəflər arasında əməkdaşlığı daha da gücləndirər. Azərbaycan türkdilli dövlətlərin media forumunun Bakıda keçirilməsinə hazırdır. Forumda təkcə telekanallarla bağlı məsələ deyil, ümumilikdə jurnalistlər arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparılmalıdır.

Çıxışlardan sonra Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin II toplantısının Qırğızıstanda keçirilməsi qərara alınıb. Daha sonra TRT AVAZ-ın Türk Şurasına üzv ölkələrin tarixi və mədəniyyəti ilə bağlı hazırladığı videoarxı nümayiş olunub. Sonda milli ictimai televiziya kanalları arasında çoxtərəfli texniki əməkdaşlıq protokolu imzalanıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

8 may 2019-cu il







# YAP-nın Mərkəzi Qərargahında rəsm sərgisi keçirilib

*Əli Əhmədov: "Ulu Öndər Heydər Əliyev hər zaman bütün sahələrə, eləcə də, mədəniyyət sahəsinə böyük dəstək verib"*

Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərərgahında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə gənc rəssamların sərgisinin açılış mərasimi keçirilib.

Tədbirdə YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədov, Milli Məclisin vitse-spikeri Bahar Muradova, deputatlar, partiyanın bir sıra rayon təşkilatlarının sədrləri, gənclər və fəal ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov Ulu Öndər Heydər Əliyevin hər zaman bütün sahələrə, eləcə də, mədəniyyət sahəsinə böyük dəstək verdiyini bildirib: "Bu günə qədər də həmin dəstək unudulmayıb. Azərbaycanda mədəniyyət işçilərinin əməyinə hər zaman xüsusi diqqət və qayğı göstərilib. Xüsusilə, istedadlı insanlarımız Ümummilli Liderimizin qayğısını daim öz üzərlərində hissi edirlər. Bu gün də həmin diqqət və qayğı dövlətimiz tərəfindən göstərilməkdə davam edir". YAP İcra katibi Əli Əhmədovun sözlərinə görə, xüsusilə, gənc nəslin nümayəndələri yaradıclıq işlərində fəallıq göstərir, mədəniyyətin bütün sahələrində irəliləyişlər əldə edirlər. Partiya da öz gücü daxilində hər zaman belə istedadlı insanlara öz yardımlarını göstərib, bundan sonra da göstərməkdə davam edəcək.

Əli Əhmədov sərgidə iştirak edən rəssamlara uğurlar arzulayıb və yaradıcılıq işlərində müvəffəqiyyətləri diləyib.

Daha sonra sərgiyə baxış keçirilib, 40-a yaxın əl işinin nümayiş olunduğu sərgidə rəsm əsərləri satışa da çıxarılıb.

**Rövşən NURƏDDİNOĞLU**

# Əli Əhmədov: "Gələn ilin yanvarından ölkəmizdə hər kəsə icbari tibbi sığorta xidməti göstəriləcək"



Gələn il yanvarın 1-dən ölkəmizdə hər kəsə icbari tibbi sığorta xidməti göstəriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə Baş nazirin müavini Əli Əhmədov jurnalistlərə açıqlamasında deyib.

Baş nazirin müavini bildirib ki, hazırda icbari tibbi sığorta ilə bağlı geniş işlər aparılır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tərkibinə keçən xəstəxanaların hazır vəziyyətə gətirilməsi üçün işlər aparılır və hüquqi normativ sənədlər hazırlanır. Yəni, genişmiqyaslı işlər aparılır ki, 2020-ci ilin yanvarın 1-də ölkəmizdə icbari tibbi sığorta xidməti göstərilsin. Əlbəttə ki, icbari tibbi sığorta sisteminə keçməkdə məqsəd vətəndaşlarımıza göstərilən tibbi xidmətin səviyyəsinin və keyfiyyətinin yüksəlməsidir. Bununla əlaqədar olaraq vətəndaşlara müxtəlif kateqoriyalar üzrə xidmət göstərilməsinin maliyyələşməsi formaları fərqli olacaq. Təbii ki, işləməyən pensiyaçılar, uşaqlar və əlillər dövlət tərəfindən sığortalanacaq.

Baş nazirin müavini qeyd edib ki, digər kateqoriyadan olan əhali isə icbari tibbi sığorta haqqını ödəməklə xidmətdən faydalanacaq. Burada muzdlu işçilər üçün bir qayda nəzərdə tutulub. Onların əməkhaqqından, işə götürənin isə qazancından müəyyən faizlərin İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ödənilməsi nəzərdə tutulur. Muzdlu əməklə məşğul olmayanlar üçün müəyyən bir məbləğ müəyyənləşəcək ki, bu ödəniş də o qədər yüksək deyil.

# "The Peninsula" qəzetində ulu öndər Heydər Əliyev haqqında məqalə dərc edilib



Azerbaijani community commemorates 96th birth anniversary of Heydar Aliyev

THE PENINSULA
DOHA

Azerbaijani Embassy and community in Qatar commemorate 96th birthday anniversary of the national leader Heydar Aliyev (pictured).

This year on May 10, Azerbaijanis celebrate 96th birthday anniversary of their national leader Heydar Aliyev. He was a great historical leader of Azerbaijan, who dedicated his life to the development and prosperity of his country and people.

Heydar Aliyev was born on May 10, 1923, in Nakhchivan, city of Azerbaijan. Working ever since in the security bodies, from 1967 he held the position of chairman of the Committee of State Security in Azerbaijan, and was conferred the rank of lieutenant general.

In July 1969, being elected as the First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan, Heydar Aliyev became the Head of Azerbaijan. In December 1982, Heydar Aliyev was elected a member of Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union, and appointed to the post of the First Deputy Chairman of the Cabinet of Ministers of the USSR, and became one of the leaders of the Soviet Union.

In October 1987, Heydar Aliyev, protesting against the policy pursued by Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union and personally the Secretary General Michael Gorbachev, resigned from his position.

In July 1990, Heydar Aliyev returned to Azerbaijan and in the same year he was elected Deputy to the Parliament of Azerbaijan. After the collapse of the Soviet Union and beginning of Armenian aggression against Azerbaijan, the country faced the threat of civil war and loss of independence. In such a difficult time the people of Azerbaijan invited Heydar Aliyev to Baku to retake the power and lead the country. On October 3, 1993, as a result of nationwide voting, Heydar Aliyev was elected President of the Republic of Azerbaijan. On October 11, 1998, gaining 76.1 percent of the votes, he was re-elected President of the Republic of Azerbaijan.

On December 12, 2003 national leader of the Azerbaijani people, President Heydar Aliyev passed away. As a result of Heydar Aliyev's far-sighted domestic and foreign policy and intensive activities Azerbaijan has started to play the role of a reliable bridge between the East and the West and become one of the most dynamic economies in the world.

Qətərin geniş oxucu kütləsinə malik ingilis dilli "The Peninsula" qəzetində Azərbaycanın bu ölkədəki səfirliyinin təşəbbüsü ilə ulu öndər Heydər Əliyevə həsr olunmuş geniş məqalə dərc edilib. Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, məqalədə mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünün qeyd ediləcəyi diqqətə çatdırılır, Ulu Öndərin ömrünü bütünlükdə öz ölkəsinin və xalqının inkişafına, firavanlığına həsr etmiş böyük tarixi lider olduğu vurğulanıb.

Yazıda Heydər Əliyevin həyat və siyasi fəaliyyətinə geniş yer verilib. Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi çətinliklərə və erməni işğalına toxunularaq, həmin illərdə ölkənin vətəndaş müharibəsi və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalqın Heydər Əliyevdən yenidən hakimiyyətə gəlməyi tələb etdiyi xatırladılıb, onun 1993 və 1998-ci illərdə iki dəfə Prezident seçildiyi diqqətə çatdırılıb. Məqalədə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti sayəsində ölkənin Şərq ilə Qərb arasında etibarlı körpü rolunu oynadığı və dünyanın ən dinamik iqtisadiyyatına sahib dövlətlərdən birinə çevrildiyi diqqətə çatdırılıb.

# Azərbaycan və Gürcüstan sərhəd xidməti rəislərinin işgüzar görüşü keçirilib



O 6 may 2019-cu il tarixdə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və Gürcüstan Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzenin başçılıq etdiyi nümayəndə heyətlərinin "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində dövlət sərhədində işçi görüşü keçirilib. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən SİA-ya verilən məlumata görə, görüş zamanı Azərbaycan-Gürcüstan dövlət sərhədində əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə qarşı təhdidlərlə birgə mübarizə aparılması, məlumat və təcrübə mübadiləsinin davam etdirilməsi, əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Tərəflər ikitərəfli əməkdaşlığın inkişaf dinamikasını müsbət qiymətləndirmiş, Azərbaycan və Gürcüstan sərhəd qurumları arasında mövcud münasibətlərin səviyyəsinin dövlət sərhədində qanunsuz fəaliyyətlərin qarşısının alınması üzrə məsələlərin birgə həll edilməsinə töhfə verdiyini vurğulayıblar. Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçib.

# Türkiyə XİN: erməni terrorçunu milli qəhrəman səviyyəsinə qaldırmaq terrorçuluğun təbliğidir

Türkiyə tərəfi erməni terrorçu Gurgen Yanikiyanın nəşinin Los-Ancelesdən gətirilib Yerevanda hərbi məzarlıqda təntənə ilə dəfn olunmasına kəskin etirazını ifadə edib. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi saytında məlumat yayılıb. Bildirilir ki, amansız bir erməni terrorçunu milli qəhrəman səviyyəsinə qaldırmaq və onun üçün təntənəli mərasim təşkil etmək terrorizmin təbliğidir və bunu heç bir halda qəbul etmirik.

Qeyd edək ki, Türkiyənin ABŞ-ın Los-Anceles şəhərindəki baş konsulu Mehmet Baydar və onun müavini Bahadur Dəmir 1973-cü il oktyabrın 27-də erməni terrorçu Gurgen Yanikiyan tərəfindən vəhşicəsinə qətlə yetiriliblər.

# Müstəqil, qüdrətli və müasir Azərbaycan dövlətinin banisi

## *Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb və ən şanlı səhifələri də, məhz onun adı ilə bağlıdır*

***Kimsəyə sirr deyil ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi gerçəkliyə və reallığa çevirib. Bu gün, Ulu Öndər Heydər Əliyev cismən aramızda olmasa da, qəlbimizdə daim yaşamaqdadır. Bu baxımdan, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının əbədiyaşar Lideri kimi də tərənnüm olunmaqdadır.***



Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Heydər Əliyev bənzərsiz və müqayisəolunmaz şəxsiyyət idi. Ulu Öndər müstəqil dövlətimizin tarixini yaradıb və ən şanlı səhifələri də, məhz onun adı ilə bağlıdır. Ümummilli Liderimiz demokratiyanın həm ideoloqu, həm təşkilatçısı, həm də icraçısı idi. O, Azərbaycanın nüfuzunu bütün dünyada yetərincə yüksəkliklərə qaldırıb.

Biz bir həqiqəti heç vaxt unutmamalıyıq, Dahi Öndər Heydər Əliyev birinci dəfə Azərbaycana rəhbərliyə gələndə ölkəmiz geridə qalmış bir respublika idi. Ulu Öndər rayonlara səfər edir, adamlarla görüşür, onların problemlərini öyrənir, bir sözlə, sosial infrastrukturun geridə qalma səbəblərini araşdırırdı. Dahi şəxsiyyət tikinti-quruculuq işlərinə xüsusi əhəmiyyət verirdi. Orta və yaşlı nəslin nümayəndələri, yəqin ki, yaxşı xatırlayırlar. O illərdə Azərbaycanın elə bir şəhəri, rayonu, qəsəbəsi və kəndi yox idi ki, orada tikinti-quruculuq işləri aparılmasın. Yollar çəkilir, məktəblər, xəstəxanalar, yaşayış binaları tikilirdi. Ulu Öndər Heydər Əliyevin xoşbəxtliyi onda idi ki, xalq tərəfindən sevi-



***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü***

lirdi, fitri istedadı, idarəetmə qabiliyyəti vardı. O, bütün həyatını Azərbaycanın çiçəklənməsinə, qüdrətlənməsinə, insanların firavan yaşamasına həsr etmişdi. Heydər Əliyevi nadir dövlət xadimi kimi uca zirvəyə qaldıran, xalqın Ümummilli Liderinə çevirən keyfiyyətlərindən birincisi, Onun xalqına qırılmaz tellərlə bağlı olması idi. Ulu Öndər həmişə azərbaycanlı olması ilə fəxr edirdi. Ölkəmizin bu illər ərzində əldə etdiyi tarixi uğurlar, məhz dahi şəxsiyyət və əbədiyaşar Lider Heydər Əliyevin adı ilə bağlıdır.

### Müdriklik mücəssəməsi

Azərbaycan 1969-cu ildən 1982-ci ilədək bir dövrdə Ulu Öndər Heydər Əliyevin qətiyyəti və yorulmaz fəaliyyəti nəticəsində iqtisadi yüksəliş yoluna çıxdı. Respublikamız quruculuq meydanına çevrildi, kəndlər və şəhərlər öz simasını dəyişdi. Ulu Öndər təkcə Azərbaycanın deyil, bütün dünyanın taleyində həlledici təsir göstərən nəhəng siyasətçilər və dövlət xadimləri arasında öz dühası, müdrikliyi ilə xüsusi yer tutmuşdur.

Dahi Öndər Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaq, Azərbaycanın indiki və gələcək nəsilləri üçün əbədi örnək olacaqdır. Dahi şəxsiyyət canından çox sevdiyi xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir müstəqil Azərbaycan bəxş etdi. Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması və Heydər Əliyev dühasının bəhrəsidir. Biz çox xoşbəxtik ki, qismətimizə Onun kimi dahi və nadir şəxsiyyətlə, qüdrətli lider və dövlət rəhbəri ilə eyni dövrdə yaşamaq səadəti düşmüşdür. Bu gün təkcə xalqımız deyil, həm də dünya şöhrətli siyasətçilər, tarixçilər və politoloqlar Ümummilli Liderimiz Heydər Əliyevi müasir müstəqil Azərbaycan dövlətinin həqiqi memarı və yaradıcısı sayır. XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq, müstəqil bir dövlət kimi formalaşması Böyük Öndərimizin titanik siyasi fəaliyyətinin nəticəsidir. Heydər Əliyev şəxsiyyətinin və siyasi fəaliyyətinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi, adının bəşər tarixində əbədi iz qoymuş dövlət xadimləri ilə bir sırada çəkilməsi bizim üçün hədsiz qürur və iftixar mənbəyidir. Ulu Öndərimizin xalqımızın və dövlətimizin tarixində, taleyində təkrarolunmaz rolu bizə haqq verir ki, Onu Azərbaycanın bütün dövrlərdə yetişdirdiyi şəxsiyyətlərin ən ucası adlandıraq.

Ümummilli Liderimizin bizə ərməğan qoyub getdiyi zəngin irsi bu gün də, sabah da, gələcəkdə də daim öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütun dirəkləridir. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İctimai həyatımızın elə bir sahə və istiqamətini tapmaq mümkün deyil ki, orada Ulu Öndər Heydər Əliyevin izi, hərarəti duyulmasın. Ulu Öndərimizin 19 il bundan əvvəl uzaqgörənliklə müəyyənləşdirdiyi, konseptual əsasları yaratdığı xarici və daxili siyasət kursu, milli neft strategiyası bu gün öz bəhrələrini verir. "Əsrin müqaviləsi" çərçivəsində reallaşan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələri Heydər Əliyevin milli neft strategiyasının təntənəsi, Azərbaycanın xoşbəxt gələcəyinin möhkəm bazası və möcüzəli açarıdır.

### Böyük filosof və mütəfəkkir

Ulu Öndər Heydər Əliyev həm də zəmanəmizin böyük filosofu və mütəfəkkiri kimi tanınıb. Onun formalaşdırdığı və həyata keçirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, dünya azərbaycanlılarının bir ideya ətrafında birləşməsinə və həmrəylik nümayiş etdirməsinə səbəb olmuşdur. Təsadüfi deyil ki, dünyanın bir çox görkəmli dövlət başçıları və ictimai xadimləri, nüfuzlu politoloqları Ümummilli Liderimiz barədə yüksək fikirlər söyləmişlər. Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl Ulu Öndərimiz Heydər Əliyevi "Azərbaycan xalqının nicatı üçün bir şans, canını Vətəni və xalqı yolunda sipərə çevirən qeyrətli oğul" adlandırıb. Dünyanın ən məşhur dövlət xadimlərinin portretlərini çəkmiş görkəmli rəssam Nikos Safronov Heydər Əliyevin 80 illik yubileyi münasibətilə portretini çəkərkən dahi rəhbərimizlə ünsiyyətdə olduqdan sonra, bu qənaətə gəlmişdir ki, Heydər Əlirza oğlu Əliyev Tanrının yaratdığı möcüzədir, belə şəxsiyyətlər min ildə bir dəfə dünyaya gəlir.

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Azərbaycan və Heydər Əliyev əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə və yaddaşlarda əbədi yaşayacaqdır. O, bizim üçün həmişə əziz olub, əziz olaraq da qalacaqdır. Ulu Öndər müdriklik simvolu idi. Dahi və bənzərsiz şəxsiyyət Heydər Əliyevin ideyaları həyatımızın hər sahəsinə işıq salır və bizə yol göstərir.

### Ümummilli Lider, Ulu Öndər Heydər Əliyev irsinə daim sədaqətliyik, bundan sonra da belə olacağıq

Ümmilli Liderimiz bu gün aramızda olmasa da, Onun bizlərə qoyduğu ərməğan möhkəm təməllərə əsaslanmışdır. Bizlər həm də, ona görə xoşbəxtik ki, məhz Heydər Əliyevin zəngin ideyalarının davamçısı olan layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında gələcəyə addımlayırıq. Çünki artıq 10 ilə yaxındır ki, Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi Prezident Fərmanı ilə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları qəbul olunmuşdur. Prezident İlham Əliyev ölkədə insan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını daim diqqət mərkəzində saxlayır. O, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir.

Azərbaycan Prezidenti, partiyamızın Sədri İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi".

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Dahi Öndər Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən, Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafeyini bütün sahələrdə uğurla müdafiə edir. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu getdikcə artır.

Bütün bu kimi əhəmiyyətli amillər isə, həm də o deməkdir ki, müqəddəs, sarsılmaz və qüdrətli dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət dövlət başçımız tərəfindən qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq, yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Eyni zamanda, bizim hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Ümummilli Lider Heydər Əliyev irsinə daim sədaqətliyik və bundan sonra da belə olacağıq. Azərbaycanın dahi oğlunun əməlləri, müqəddəs ideyaları və arzuları xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır!

# Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir

## YAP Siyasi Şurasının üzvü, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun yap.org.az-a müsahibəsi

***- Tahir müəllim, mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü tamam olur. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın xilaskarı olan Ulu Öndər Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki yeri və rolu nədən ibarətdir?***

- Bildiyiniz kimi, hər il olduğu kimi bu ildə də xalqımızın böyük oğlu, müasir Azərbaycan dövlətinin qurucusu və banisi, əbədi olaraq ümumxalq sevgisini qazanmış ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü təntənə ilə qeyd edilir.

Ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan dahi rəhbər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti ən yeni tariximizdə müstəsna yer tutur. Yüksək insani keyfiyyətlərinə, mükəmməl dövləti idarəetmə bacarığına, xalqa xidmət mədəniyyətinə görə Heydər Əliyev dünyada nadir tarixi şəxsiyyətlər sırasındadır. Bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli ölkə kimi təşəkkülü üçün ümummilli lider Heydər Əliyevə minnətdarıq. Bunu demək yerinə düşər ki, hər bir vətəndaşımızın qəlbində əbədiyaşarlıq zirvəsini fəth etmiş Heydər Əliyev əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, alternativsiz dövlətçilik konsepsiyası, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində olan güclü Azərbaycanı qoydu.

Ulu öndər Heydər Əliyev 1969-cu il iyulun 14-dən 1982-ci il noyabrın 22-də Sov.İKP Siyasi Büronun üzvü, həmin ayın 24-də SSRİ Nazirlər Soveti sədrinin I müavini seçilənə qədər, Azərbaycan SSR-ə rəhbərlik etmişdir. Məhz Heydər Əliyevin fədakar əməyinin, səmərəli işgüzarlığının, uzaqgörən rəhbərlik və təşkilatçılıq istedadının sayəsində Azərbaycan bu illər ərzində sürətlə və hərtərəfli inkişaf edərək keçmiş İttifaqın öncül respublikalarından birinə çevrilmişdir. 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının bütün sahələrində istehsalın sürətlə artması nəticəsində iqtisadi və sosial inkişafın ümumiləşdirici göstəricisi olan milli gəlir 2,5 dəfə artdı. Respublikamızda bütün sahələrin - sənayenin, elmin, təhsilin, səhiyyənin sıçrayışlı inkişafı, elm tutumlu istehsal sahələrinin yaradılması məhz Heydər Əliyevin səyləri və məqsədyönlü fəaliyyəti ilə təmin olunmuş, intellektual, elmi-texniki və iqtisadi potensialı ciddi dərəcədə yüksəlmişdi. 60-cı illərə qədər sənaye malları asılılığı ilə üzləşən Azərbaycan artıq 70-ci illərdə dünyanın 65 ölkəsinə 350 adda müxtəlif növ məhsul ixrac edən ölkəyə çevrilmişdi. Azərbaycan həmin illərdə neft, qaz avadanlıqları istehsalına görə dünyada ABŞ-dan sonra ikinci ən güclü ölkə idi. Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə azərbaycanlı milli kadrların hazırlanması işinə də xüsusi diqqət yetirirdi. Məhz onun təşəbbüsünün nəticəsi idi ki, azərbaycanlı gənclər keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. Təkcə onu deyim ki, 1969-1982-ci illərdə 10 mindən çox azərbaycanlı gənc Rusiya, Ukrayna və digər ölkələrin tanınmış ali məktəblərində təhsil alaraq respublikaya qayıtmış, Azərbaycanın inkişafına xidmət göstərmişdi və bu gün də göstərirlər.

Bir sözlə Ümummilli lider sözün əsl mənasında Ən Böyük Azərbaycanlı idi. Ölkənin, xalqın, Azərbaycan tarixinin, onun dövlətçiliyinin böyük təssübkeşi olan Heydər Əliyev XX yüzilliyin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı oldu, beləcə ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən yan keçdi.

***- Ümummilli Liderin əsasını qoyduğu dövlət quruculuğu prosesi Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafını və yeni mərhələdə tarixin siyasi səhnəsində özünəməxsus yer tutmasını təmin etdi. Bu barədə fikirlərinizi bildirməyinizi xahiş edirik.***

- Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 40 ilə yaxın bir dövr ərzindəki bənzərsiz fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr olunmuşdur. Ulu öndər Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyasının əsas nüvəsini müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi, artırılması və möhkəmləndirilməsi təşkil edirdi.



Onun ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, qloballaşan dünya iqtisadiyyatına inteqrasiyası sahəsində, həqiqətən, misilsiz fəaliyyəti nəticəsində ölkəmiz sürətli tərəqqi yoluna qədəm qoymuşdur. Tam qətiyyətlə və cəsarətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin intensiv inkişaf mərhələsini və tariximizin ən şanlı dövrünü təşkil edir. Böyük idarəçilik təcrübəsinə malik ulu öndər müstəqil Azərbaycan dövlətçiliyinin milli və bəşəri normalara əsaslanan uzunmüddətli konsepsiyasını işləyib hazırlamış və onu dəqiqliklə həyata keçirmişdir. Bunun nəticəsidir ki, Azərbaycan bu gün dünyada özünəməxsus yeri olan dövlətlərdən biridir. Xalqını sonsuz məhəbbətlə sevən bu böyük insan bütün həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr edib.

***- Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Bu tarixi hadisə və partiyanın ötən müddət ərzində keçdiyi zəngin, şərəfli inkişaf yolu barədə nə deyə bilərsiniz?***

- Qəbul edilmiş təcrübə göstərir ki, tarixin olduqca vacib, həlledici məqamlarında ictimai-siyasi təşkilatlanmaya, xalqın maraqlarını təmsil edən qüvvələrin vahid qurumda bir araya gəlməsinə nail olmadan qarşıda dayanmış ümummilli problemlərin həlli mümkün deyildir. Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət olan ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranması məhz belə bir tarixi gerçəklikdən qaynaqlandı. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etsə də, o dövrdə hakimiyyət sükanı arxasında dayanan bəzi siyasətbazların səriştəsizliyi ucbatından bu müstəqilliyi həqiqi mənada möhkəmləndirmək, dövlətin dayaqlarını gücləndirmək mümkün olmamışdı. Həmçinin, Ermənistanın işğalçılıq siyasəti, ölkə daxilindəki çəkişmələr cəmi bir il əvvəl qazanılmış müstəqilliyi təhlükə altında qoymuşdu. Belə bir həlledici zamanda cəmiyyətin sağlam qüvvələrinin diqqəti Naxçıvana yönəlmişdi. Azərbaycanın çətin anında Ümummilli liderimizin ətrafında sıx birləşməyə, onun dərin zəkasının köməyi ilə xalqı, yenicə müstəqillik qazanmış dövləti bu fəlakətdən xilas etməyə çalışan insanların çevrəsi cəmiyyətin bütün zümrələrini əhatə edirdi. Xüsusilə ziyalılar Heydər Əliyevin xalq üçün nə qədər lazımlı olduğunu gözəl bilirdilər. Belə bir məqamda, Azərbaycan xalqının iztirablarını, ölkənin iflasa və məhvə sürüklənməsi təhlükəsini, Azərbaycan ziyalılarının ürək ağrısı və nigarançılığını, həmçinin, bununla bağlı bir qrup görkəmli şəxslərin müraciətini nəzərə alan ulu öndər Heydər Əliyev onlara yazdığı 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi.

Bu gün mübaliğəsiz deyə bilərəm ki, 1993-cü ildən indiyədək YAP bütün seçkilərdə böyük qələbələr qazanıb. Yeni Azərbaycan Partiyası Heydər Əliyev siyasi məktəbinin ən əsas sütunudur və ən böyük təsirə malik olan siyasi qüvvədir. Partiyanın keçdiyi 27 ilə yaxın şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını, sarsılmaz və əbədi olduğunu təsdiqləyir. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən İlham Əliyev Azərbaycanın daha da qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etdi və bu yola sadiqliyini hər bir fəaliyyəti ilə təsdiq etdi. Ötən illər ərzində görülən işlər, əldə olunan uğurlar dövlətimizin başçısı İlham Əliyevin növbəti seçkilərdə də parlaq qələbəsini təmin etdi. Hər bir vədini əməli işi ilə təsdiqləyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın hərtərəfli inkişafını həyata keçirilən siyasətin önündə saxlayır. Uğurların davamlılığını təmin etmək üçün atılan biri-birindən əhəmiyyətli addımlar da bunu hər gün təsdiq edir.

***- Müstəqilliyin ilk illərində xaos və anarxiya məkanına çevrilən Azərbaycanın xarici əlaqələri də arzuolunmaz vəziyyətdə idi. Ümummilli Liderin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsindən sonra Azərbaycanda beynəlxalq müstəvidə söz və nüfuz sahibinə çevrildi, etibarlı tərəfdaş kimi tanınmağa başladı. Bu amilin Azərbaycanın inkişafında və beynəlxalq mövqeyinin möhkəmlənməsində əhəmiyyəti nədir?***

- İctimaiyyətə yaxşı məlum olduğu kimi, 1991-ci ildə müstəqilliyini bərpa edərək bazar iqtisadiyyatı istiqamətində ilk addımlarını atan Azərbaycan Respublikası böyük iqtisadi və siyasi çətinliklərlə rastlaşmışdır. 1989-cu ildən başlamış geriləmə prosesi müstəqilliyin ilk üç ilində daha da dərinləşmişdir. Əgər 1989-1991-ci illərdə ümumi daxili məhsul istehsalı hər il orta hesabla 5,7 faiz azalırdısa, sonrakı üç il ərzində azalmanın sürəti 3,8 dəfə artmışdır. 1993-cü ildə 1990-cı ilə nisbətən 2 dəfə az sənaye və kənd təsərrüfatı məhsulu istehsal edilmişdir. Ölkənin belə bir çətin vəziyyətdən çıxarılmasında və Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Yəni, Azərbaycanın bugünkü uğurları müasir Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilərək həyata keçirilmiş islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosial yönümlü iqtisadiyyatın inkişafına nail olunmuş, ölkə əhalisinin həyat səviyyəsi yüksəldilmişdir. Müstəqilliyin ilk illərində

# Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir

## YAP Siyasi Şurasının üzvü, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun yap.org.az-a müsahibəsi

baş vermiş iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və sabitliyin bərpası məqsədilə Heydər Əliyevin atdığı qətiyyətli addımlar qısa müddət ərzində hər bir vətəndaşın həyatında hiss olunmağa başlamışdır.

Ölkənin sosial-iqtisadi inkişafının təmin olunması ilə bağlı görülmüş ən əsas işlərdən biri və bu gün nəinki Azərbaycanda, eləcə də dünyada neft strategiyasının və siyasətinin formalaşdırılmasında xüsusi əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi"nin imzalanması olmuşdur. İlk dəfə 8 ölkəni əhatə edən bu müqavilə növbəti illərdə 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açmışdır. Bağlanmış müqavilələr hesabına ölkənin neft sektoru sürətlə inkişaf etdirilmiş, ölkəyə daxil olan vəsaitlər hesabına qeyri-neft sektorunun inkişafına və əhalinin sosial problemlərinin həllinə nail olunmuşdur.

İqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltmək məqsədilə MDB məkanında ilk dəfə olaraq torpaq islahatı həyata keçirilmişdir.

Bazar iqtisadiyyatı prinsiplərinin, sahibkarlıq sinfinin formalaşdırılması məqsədilə dövlət tərəfindən zəruri addımlar atılmışdır. Sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafı və bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün ardıcıl dövlət proqramları qəbul edilmiş, qanunvericilik bazası yaradılmışdır. İqtisadi sferada dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi məqsədilə ciddi tədbirlər görülmüş, bu sahədə bir-birini təkrarlayan, paralel və lüzumsuz yoxlamaların sayı azaldılmışdır.

1994-cü ildən başlayaraq iqtisadiyyatda aparılan islahatlar, qanunvericiliyin, vergi və bank sistemlərinin sürətlə dəyişən iqtisadi şəraitə uyğunlaşdırılması, bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsi bütün sahələrdə inkişaf mərhələsinin başlanmasına təkan vermişdir. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar qısa bir zamanda uğurlu nəticələr verərək iqtisadi inkişafa səbəb olmuş, ölkəmizin qüdrətli iqtisadi dayaqları üçün əsaslar yaratmışdır. Bütün sahələrdə olduğu kimi, Azərbaycan iqtisadi sahədə də dünya iqtisadiyyatına inteqrasiya etmiş, dövlətlərarası münasibətlərin fəal subyektinə çevrilmiş, dünya miqyasında layiqli yerini tutmuşdur.

"Əsrin müqaviləsi" üzrə müvəffəqiyyətlə həyata keçirilmiş işlərdən sonra 1997-ci ilin noyabrında "Çıraq" yatağının ilk quyusundan, sonrakı illərdə "Mərkəzi Azəri" yatağından neft, "Şahdəniz" və "Günəşli" yataqlarından qaz hasil olunmuş, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz qaz kəməri istismara verilmiş və ölkəmiz neftlə yanaşı, qazın da ixracatçısına çevrilmişdir. Bunlarla yanaşı, elektroenergetika sahəsinin də inkişafı ilə bağlı icra olunmuş nəhəng layihələr nəticəsində Azərbaycan nəinki öz enerji təhlükəsizliyini təmin etmiş, regionun, hətta Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində aparıcı tərəfdaşa çevrilmişdir.

Məhz görülmüş tədbirlər nəticəsində iqtisadi inkişafın ümumiləşdirici göstəricisi olan Ümumi Daxili Məhsul istehsalında yüksəlişə nail olunmuşdur. Artıq bu günün reallıqları sübut edir ki, ulu öndər Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir, bəhərini qədirbilən xalqımız daim yüksək qiymətləndirir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir.

***- Əminliklə söyləmək olar ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi islahatlar konsepsiyası yeni mərhələdə Azərbaycanın inkişafını şərtləndirən əsas faktordur. Bununla bağlı fikirləriniz nədən ibarətdir?***

- Heydər Əliyev həyatı böyu qurucusu olduğu Azərbaycanın tarixi məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra ölkəmizin ictimai həyatında və dövlət quruculuğu sahəsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılmış köklü islahatlar nəticəsində dövlətimiz beynəlxalq aləmin bərabərhüquqlu üzvünə çevrilmişdir.

Ulu Öndər Azərbaycan Respublikasının gələcək inkişafını demokratik və dünyəvi dəyərlərə söykənən sistemlər üzərində qurmuşdur. Müdrik rəhbərimiz müstəqilliyin ilk illərində respublikamızın milli iqtisadiyyatını səmərəli iqtisadi sistem əsasında, habelə xüsusi mülkiyyət, azad sahibkarlıq və sağlam rəqabət prinsipləri üzərində qərarlaşdırmaq və inkişaf etdirmək üçün strateji xəttini müəyyən etdi. Buna nail olmaq üçün isə hökumətdən ardıcıl və sistemli iqtisadi islahatlar proqramının işləyib hazırlamaq tələb olunurdu. İqtisadi islahat proqramlarının işlənməsi və həyata keçirilməsi prosesində nəzərə alınmalı ən vacib cəhət ondan ibarət idi ki, Azərbaycan vahid mərkəzləşdirilmiş iqtisadiyyatın tərkib hissəsi olan qapalı iqtisadi sistemdən tamamilə müstəqil və suveren dövlətin iqtisadiyyatına - milli iqtisadiyyata keçidi təmin etməli idi. Eyni zamanda, bu mərhələdə iqtisadiyyatın idarə olunması sahəsində hökm sürən inzibati-amirlik metodlarından özözünü tənzimləyən sərbəst bazar münasibətlərinə keçid məsələsi həll olunmalı idi.

Göründüyü kimi, Heydər Əliyevin strateji inkişaf kursunun real bəhrələrini hər bir Azərbaycan vətəndaşı, o cümlədən əhalinin aztəminatlı hissəsi rifah halının günbəgün yaxşılaşmasında görür və ölkəmizin daha da inkişaf edəcəyinə qətiyyən şübhə etmir. Çünki bunun üçün möhkəm iqtisadi bazanı ümummilli liderimiz artıq yaradıb və davamlı sosial-iqtisadi inkişaf kursunun Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi gələcəyə nikbinliklə baxmağa əsas verir. Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları və vəsiyyətləri həmişə yaşayacaqdır.

***- Dünyada güclü və nüfuzlu dövlət kimi tanınan, yüksək nüfuza və müsbət beynəlxalq reputasiyaya malik olan müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında uğurla inkişaf edir. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanır, yeni zirvələr fəth edir. Bugünkü reallıqları və perspektivi necə dəyərləndirirsiniz?***

- Bu gün xalqımız Heydər Əliyev siyasətin uğurlarını gündəlik həyatında hiss edir, onunla yaşayır və onun irsindən faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin alternativsiz siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub-saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olunması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu keyfiyyətcə yeni müstəvidə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rol və nüfuzunu artırır. Xalqımız bu siyasətə yüksək dəyərləndirir. Ölkəmizdə 11 aprel 2018-ci ildə keçirilən prezident seçkiləri dövlət-xalq birliyini, respublika əhalisinin böyük əksəriyyətinin Prezident İlham Əliyevə dərin inam və məhəbbət bəslədiyini bir daha təsdiq etdi. Xalqımız qətiyyətlə inanır və görür ki, ölkəmizin sürətli, hərtərəfli və dinamik inkişafı Heydər Əliyev siyasi kursu və bu kursu inamla irəli aparan Prezident İlham Əliyevin düşünülmüş və yaradıcı fəaliyyəti ilə bağlıdır. İqtidarla xalq arasında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib. Bütün bu uğurların əldə olunmasında Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin də xüsusi payı var. Azərbaycanın Birinci xanımı milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsi, uşaq və gənclərin sağlam, millimənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsi, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirlər həyata keçirməklə böyük layihələrin müəllifinə çevrilib.

***- Tahir müəllim, son olaraq YAP Siyasi Şurasının üzvü kimi gənc partiya üzvlərinə arzularınız, tövsiyələriniz?***

- Əvvəla bildirim ki, gənclər bir millətin yaşaması, dövlətin inkişafı üçün təməl daşını təşkil edir. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtlərdəndir. Yeni Azərbaycan Partiyasının və onun Gənclər Birliyinin - Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla ölkəmizin ictimai-siyasi həyatındakı misilsiz rolu göz qabağındadır. Onu deyim ki, hər bir ölkədə dövlətçiliyin, suverenliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin daha etibarlı təminatı sağlam və intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların cəmiyyətdə aparıcı qüvvəyə çevrilməsindən olduqca asılıdır. Bu baxımdan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycanın inkişaf strategiyası öz bəhrəsini vermiş və bu strategiya nəticəsində dövlətimizin üçrəngli bayrağı bütün sahələr üzrə dünyanın ən ali beynəlxalq qurumlarında dalğalanır. Dünya miqyaslı siyasətçi Heydər Əliyevin mükəmməl dövləti fəaliyyəti və mənalı həyatı hər birimiz üçün müdriklik məbədidir. Arzu edirəm ki, partiyamızın gənc üzvləri və müasir gənclik dahi şəxsiyyətin zəngin irsindən və bəşəri ideyalarından bəhrələnib, müstəqil Azərbaycanın gələcəyi naminə Heydər Əliyev yoluna daim sadiq olsunlar.

GƏNCLİYİN SƏSİ

# Lider tarixi-siyasi tələbatından və genetik potensialından doğulur



Elnurə Cəfərzadə, fəal gənc

***Deyildiyi kimi, boş zaman yoxdur, boşa keçən zaman var. Məhz fəaliyyətinin hər dövründə zamanı boşa keçirməyən, əksinə, zamanı əməlləri ilə zənginləşdirən Ulu Öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, möhtəşəm və qüdrətli müasir Azərbaycan dövlətinin yaradılması olmuşdur. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyi və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutmuşdur və O, xalqın öz Vətəninə ürəkdən bağlı olan nadir şəxsiyyətlərindəndir. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur.***

Ulu Öndər Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də, Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Dahi Şəxsiyyət Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün Azərbaycanın gələcək tarixi taleyi baxımından, başlıca məzmunu isə azərbaycançılıqdır. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi xüsusi yer tutmuşdur. Ulu Öndər Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xətə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verməsi, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələcək bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etməsi, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını qətiyyətlə tərk etməsi vətənpərvərliklə, azərbaycançılıq məfkurəsi ilə bağlı idi. Bu, əsl vətənpərvərlik mövqeyinin nümayişi idi.

Dahi Öndər Heydər Əliyevin dövlət və xalq qarşısındakı tarixi xidmətlərini heç kim inkar edə bilməz. Onun ölkədə vətəndaş həmrəyliyinə nail olunması, sabitlik yaradılması, müstəqil dövlət qurulması, iqtisadi-sosial sahədə, neft strategiyasında tarixi addımlar atılması, bütün sahələrdə mühüm islahatlar həyata keçirilməsi, beynəlxalq aləmdə respublikanın mövqeyinin möhkəmləndirilməsi sahəsində gördüyü işlər unudulmazdır. Ulu Öndər ölkədə bazar iqtisadiyyatının təşəkkül tapmasında, Azərbaycana xarici investisiyaların cəlb olunmasında, beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsində, xalqın rifah halının yüksəldilməsində çox böyük işlər görmüşdür. Məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində Azərbaycan inkişaf etmiş və sivil dövlətlər sırasına qoşulmuşdur. Ümumiyyətlə, siyasi, iqtisadi, sosial, mədəni həyatda, beynəlxalq sahədə kifayət qədər nailiyyətlər qazanılmışdırsa, dövlətçiliyin gücləndirilməsində, ölkənin tərəqqisində nə qədər yeniliklər və uğurlar əldə edilmişdirsə, bunlar Heydər Əliyevin sayəsində mümkün olmuşdur.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət nəticəsində, ölkənin iqtisadi həyatında qazanılmış ən mühüm uğurlardan biri də dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə bağlanmış neft müqavilələri olmuşdur.

Dahi Şəxsiyyət Heydər Əliyev, ən qısa zaman kəsiyində, yüzilliyin ideyaları sayılan bu üç irsi həyata keçirməyə, suveren, demokratik Azərbaycan dövləti yaratmağa, onun özünəməxsus siyasi inkişaf modelini müəyyənləşdirməyə qadir olmuşdur. O, sübut etmişdir ki, heç bir ideya cəmiyyətə kənardan diktə və göstərişlə qəbul etdirilə bilməz. Cəmiyyətin öz içərisində ideyanı duyan, konkret tarixi spesifikaya uyğun tətbiq edən və yeni ideyaları milyonlara çatdıra bilən siyasi lider hər şeyə qadirdir".

Bəli, bu gün Azərbaycan, sözün əsl mənasında, yüksək sürətlə böyük zirvələrə doğru irəliləyir, Azərbaycan öz qüdrətini daha da artırır. Dahi Öndər Heydər Əliyevin siyasi xəttinin davamçısı olan Prezident İlham Əliyev hazırda Azərbaycanı müvəffəqiyyətlə siyasi və iqtisadi modernləşməyə doğru aparır. İqtisadiyyatın liberallaşdırılması, ölkənin geosiyasi və geoiqtisadi çəkisinin artması, vətəndaş ilə dövlət arasında vahid birliyin, ahəngdarlığın bərqərar olunması Azərbaycanı yüksələn xətlə inkişafa aparır. 2003-cü ilədək əldə edilmiş sabitlik və inkişaf son illər ərzində milli büdcənin həcmini 10 dəfədən çox, o cümlədən, müdafiə büdcəsini bir neçə dəfə, adambaşına düşən gəliri inkişafda olan ölkələrin səviyyəsinə qaldırmağa imkan vermişdir. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, Azərbaycan iqtisadi inkişaf sürətinə görə, dünyanın aparıcı dövlətləri sırasında yer almışdır. Son illər ərzində, Azərbaycan rəqabət indeksi üzrə dünyanın 60 ölkəsi içərisində, postsosialist məkanında isə ilk yerlərdə təmsil olunmuşdur. Adambaşına düşən birbaşa xarici investisiyanın həcminə görə Azərbaycan regionda lider, dünyada isə ilk onluqdadır. Azərbaycan dünyanın ən islahatçı ölkəsidir. Rəqabətədavamlılıq sahəsində Azərbaycan MDB ölkələri arasında şəksiz liderdir. Son illərdə həyata keçirilmiş tədbirlər ölkədə yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarmış, 800 mindən çox yeni iş yeri açılmışdır. Şəhər və kəndlərimiz günbəgün dəyişir, regionlarımız müasirləşir, informasiya-kommunikasiya vasitələrinin səmərəli inkişafı sayəsində ölkəmiz mühüm intellektual mərkəzə çevrilir. Bunların hamısı bir daha ölkəmizin sürətli inkişafının və modernləşməsinin bariz nümunəsidir. Əlbəttə ki, bu nailiyyətlərin əldə olunmasında müqəddəs Tanrımızın xalqımıza xoşbəxtlik rəmzi olaraq bəxş etdiyi gənc və uzaqgörən Liderimiz İlham Əliyevin fəaliyyəti danılmaz bir həqiqətdir. Dahi şəxsiyyətin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev böyük əzmkarlıq və mətanət göstərməklə Azərbaycanımızı qət olunmuş çətin sayılan zirvələrə ucaldır, dövlətçiliyimizi və tarixi müstəqilliyimizi daha da möhkəmləndirir.

# Azərbaycan gəncliyi dünyada tanınan gəncliyə çevrilib

***Bugünkü Azərbaycan gəncliyi öz bilik və bacarığı ilə seçilir. Bu da dövlətin gəncliyə göstərdiyi diqqət və qayğının öz bəhrəsini verdiyini göstərir. Söhbət etdiyimiz müsahiblərimiz gənclərin inkişafını təməl prinsipinin Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasət və ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısının təşkil etdiyini bildirdilər.***

<u>Azərbaycan Demokratik Tələbə-Gənclər Təşkilatının sədri Asif Əsgərov:</u> **"Prezident İlham Əliyev tərəfindən gənclərə böyük diqqət və qayğı mövcuddur"**



- Bu gün Azərbaycanda gənclərlə bağlı dövlətin ardıcıl siyasəti mövcuddur. Bu siyasət Prezident İlham Əliyevin Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev də gənclərə diqqət və qayğısını əsirgəmir. Bir sözlə, hər zaman gənclərimiz dövlətin diqqət və qayğısı ilə əhatə olunur. Bütövlükdə, Azərbaycanda qəbul olunmuş bu və ya digər səpkili dövlət proqramlarında da prioritet hədəflərdən biri gənclərlə bağlıdır. Cənab Prezidentimiz 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricidə təhsil almaları ilə bağlı böyük, fundamental bir sənəd imzaladı və Azərbaycanın gəncləri, məhz Azərbaycanın milli kapitalı olaraq formalaşdırıldı və dünyanın ən aparıcı universitetlərinə göndərildi. Dövlətimiz bu gənclərin xərclərini ödədi: Azərbaycanın bugünkü gəncliyi, dünyanın elə bir ölkəsi yoxdur ki, onun üçün yaradılmış unikal imkanlardan üstün imkana malik olsun. Ölkə başçısı Azərbaycan gənclərinin təşəbbüslərinin, ideyalarının reallaşdırılması üçün, məhz özünün şəxsi təşəbbüsü ilə Azərbaycan Respublikasının Gənclər Fondunu yaratdı. Gənclər Fondu dünyada yeganə fonddur ki, gənclərin hərtərəfli inkişafını təmin etməyi üzərinə vəzifə olaraq götürüb. Dünyanın digər ölkələrində Azərbaycandakı kimi Gənclər Fondu yoxdur. Bu qədər geniş imkanlara, dövlət qayğısı ilə, dövlətin himayəsi ilə təmin olunmuş bir fond yoxdur. Azərbaycan gəncliyi üçün bu gün yaradılmış gözəl imkanlar, mükəmməl şərait var. Yəni Azərbaycan gənclərinin inkişafı ilə bağlı heç cür şərait yaradılıb. Bu imkanlardan gənclərimiz bəhrələnir.

qəbul etdiyi qərarlarla yanaşı, eyni zamanda, Azərbaycanda gənclər siyasətinin həm hüquqi, həm də maddi bazasının formalaşdırılması ilə bağlıdır. Bildiyimiz kimi, bu yaxınlarda "Gənclər Siyasəti Haqqında Qanun"a yeni dəyişikliklər olundu eyni zamanda, Prezident İlham Əliyev tərəfindən gənclərə və onları birləşdirən müxtəlif gənclər təşkilatlarına dövlət dəstəyini artırmaq üçün Gənclər Fonduna vəsaitin artırılması və imkanlarının genişləndirilməsi qərarı verilmişdir. Artıq bu gün Azərbaycanda Gənclər Fondu cəmiyyətin bütün sahələrində olan gəncləri əhatə edir. Yəni hansı sahədə fəaliyyət göstərməyindən asılı olmayaraq, bütün gənclər fondla əməkdaşlıq etmək imkanlarına malikdirlər. Bu gün Azərbaycanda gənclər üçün yeni iş imkanlarının, yeni əlavə dəstəyin göstərilməsi sahəsində dövlətin mühüm addımlarını görürük. Prezident İlham Əliyevin bu yaxınlarda təsdiq etdiyi "Azərbaycanın Məşğulluq Strategiyası" ilə dövlət qurumları gənclərlə bağlı layihələrə dəstək verməyi olacaqlar. Azərbaycanda bu gün gənclərin həm mərkəzi, həm də yerli icra strukturlarında işə qəbul edilmələri, eyni zamanda, xaricdə təhsil alan istedadlı, bacarıqlı azərbaycanlı gənclərin Azərbaycanda həm dövlət qulluğuna eyni zamanda, müxtəlif sahələrə işə cəlb olunması da dövlətin gənclərə qayğısıdır. Bu kimi işlər, bir daha göstərir ki, Prezident İlham Əliyevin gənclərə olan diqqət və qayğısı başlıca istiqamətləndirir.

<u>AGAAMC-nin sədri, fəlsəfə doktoru İlqar Orucov:</u> **"Azərbaycanın gənclər siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub"**



- Müstəqil Azərbaycanın gənclər siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu gün

<u>Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov:</u> **"Azərbaycan gəncliyi uğurla inkişaf edir, öz sözünü deyir "**



- Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu zamanlarda başlıca hədəf gənclərə qayğı olmuşdur. Ümummilli Lider Heydər Əliyevin gənclərlə bağlı çoxsaylı fərman və sərəncamlar imzalaması buna bariz nümunədir. Ulu Öndər Azərbaycan gənclərinin maraqlarından çıxış edərək, onlara daim öz diqqət və qayğısını görsətmişdir. Ulu Öndər Heydər Əliyevdən sonra Onun layiqli davamçısı Prezident İlham Əliyev də bu sahədə genişmiqyaslı işlər görüb. Bu gün Azərbaycan gənclərinin, demək olar ki, səsi Avropanın ən ali məktəblərindən gəlir. Gənclərimizin xaricdə təhsil alarkən, onların təhsil haqları dövlət tərəfindən ödənilir. Bu, bir daha onu göstərir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə uğur qazanıb və uğurlar davam etməkdədir. İnamla demək olar ki, Azərbaycan gələcəyi tam şəkildə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Ümumilikdə götürsək, bu gün Azərbaycan gəncliyi ilə bağlı dövlətin tutduğu mövqe dünyanın bir çox aparıcı ölkələrində yoxdur. Bu diqqət və qayğının nəticəsidir ki, Azərbaycan gəncliyi uğurla inkişaf edir, öz sözünü deyir və Azərbaycan dövlətinin keşiyində və yanındadır.

**GÜLYANƏ**

# Şuşanın işğalından 27 il ötür



**1992-ci ilin 8 mayı işğal günü kimi tariximizə yazılıb. Bu, hər bir azərbaycanlının 27 ildir ki, xatırladığı ağrılı-acılı gündür - Şuşanın işğalı günü. Hər kəsi hiddətləndirən, qəzəb doğuran günə, çox təəssüf ki, XXI yüziilikdə bəşəriyyətin sivil dəyərləri yaşadığı zamanda işğal tarixi kimi qeyd edirik. Azərbaycan xalqının mədəniyyətinin, əsrarəngiz musiqisinin beşiyi sayılan, tarixi Azərbaycan torpaqlarının əbədi və ayrılmaz parçası, böyük alimlərin, bəstəkarların, şairlərin vətəni olan Şuşa şəhəri artıq 27 ildir təcavüzkar Ermənistanın işğalı altındadır.**

Yadlar tapdağında olan Şuşa sükuta qərq olub. Bu sükutu yaşadan isə köçəri, yersiz, tarixsiz ermənilərin olması heyrət doğurmaya bilməz. Bu gün qapıları üzümüzə bağlı olan Şuşa həsrət dolu baxışlarla öz əsl-nəcabətli, tarix boyu burada yaşayıb və bu məkanı qurub-yaradan insanların yolunu gözləyir. O insanların ki, burada qəhrəmanlıq, igidlik və qeyrət tarixini torpağa qanları ilə həkk ediblər.

Tarix yazılır və zaman-zaman oxunur. Əgər bu tariximizi yazmayıb unutsaydıq, sözsüz ki, erməni xəyanətinin nəticəsi kimi, Şuşa kimi möhtəşəm şəhərin XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olduğunu bilməzdik. Ötən əsrin əvvəli 1905-1907-ci illərdə Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qaldı və yandırıldı. 1920-ci ildə şəhərin xeyli hissəsi ermənilər tərəfindən dağıdıldı. 3-cü dəfə 1992-ci ilin mayında ermənilər bu şəhəri tamamilə işğal etdilər.

Heç kəsin, Şuşanın işğalını təsəvvürünə gətirmədiyi halda, Şuşanın işğalına gedən yol Meşəlidən, Kərkicahandan, Malıbəylidən, Quşçulardan və Xocalıdan keçdi. Şuşa 1992-il mayın 8-də erməni və rus hərbi birləşmələri tərəfindən işğal edildi. Tarixin bu yaddaş səhifəsini hər bir azərbaycanlı yaddaşına həkk etməlidir. İşğal zamanı 1860 azərbaycanlı yaralandı, 480-i həlak oldu, 22 min nəfər öz yurdundan didərgin düşdü. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur. Şuşanın işğalı zamanı yerli əhalinin 193 nəfəri şəhid, 102 nəfəri isə əlil oldu.

Şuşa şəhərində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən, Pənahəli xanın sarayını, Cümə məscidini, Aşağı Gövhər Ağa məscidi, Xurşid Banu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən, Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talayıb və məhv ediblər. Ermənilər insanlığa sığmayan vəhşiliyə də əl atıblar: Üzeyir Hacıbəyli, Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəllərini belə güllələyiblər.

Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin (300-dən çox əşya), vokal sənətimizin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilib. İşğal olunmuş ərazilərdə erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

### "ŞUŞASIZ, AĞDAMSIZ, ÜMUMİYYƏTLƏ QARABAĞSIZ AZƏRBAYCAN YOXDUR"

Bu, Şuşanın bu günü və keçmişi ilə bağlı olan tarixindən kiçik bir səhifədir. Böyük tarixə yeni saxta tarix yazmaq elə də asan deyil. Bu böyük tarixdə bir güc var, bir qəhrəmanlıq var. Şuşa müqəddəs bir şəhərdir. Bu işğal tarixi müvəqqətidir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət, ölkənin gücü, iqtisadi inkişafı, dünya birliyində yeri və milli ordusu şuşalıları Şuşaya qaytaracaq.

Ümummilli Lider Heydər Əliyevin bildirdiyi kimi, "Şuşasız, Ağdamsız, ümumiyyətlə, Qarabağsız Azərbaycan yoxdur". Bunun başqa bir yolu yoxdur. Ermənilər Şuşanı müvəqqəti işğal etsələr də, kəndlərinə yalançı adlar qoyub özünküləşdirməyə cəhd etsələr də, bu, utopiya olaraq qalacaq. Zaman ən böyük hakimdir. Ümummilli Lider Heydər Əliyev işğal altında olan torpaqlarımızın sülh yolu ilə azad edilməsinə çalışmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti ardıcıl və geniş şəkildə davam etdirir. Erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Azərbaycan tərəfi açıq bəyan edib ki, sülh danışıqları nəticə verməzsə, münaqişə hərb yolu ilə həll ediləcəkdir.

2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü ortaya qoymuş oldu. Ermənilərin törətdikləri təxribatların qarşısının alınması zamanı Azərbaycan əsgəri düşmənə ərazilərimizə qarşı hərbi təcavüz siyasətinin davam etdirildiyi illərin ən sərt cavabını verərək, ən ağır zərbəsini vurdu. Azərbaycanın getdikcə artan qüdrətini və gücünü düşmən qovulduğu yüksəkliklərlə və verdiyi tələfatlarla gördü.

Azərbaycan Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızın geri qaytarılacağını çıxışlarında əminliklə qeyd edir: "Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik və səfərbərlik bizim qələbəmizi şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik". Gözü yolda qalan Şuşamızın da düşmən işğalından azad olacağı gün uzaqda deyil. Zaman yetişəcək, Cocuq Mərcanlıda olduğu kimi, Azərbaycan bayrağı Şuşada da dalğalanacaq.

Erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən, doğma Şuşamızı sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir.

*Nəzakət ƏLƏDDİNQIZI*



## Ulu öndər Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı

**Mayın 7-də Nizami Kino Mərkəzində Səbail Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tədbir keçirilib. Bu barədə AZƏRTAC-a icra hakimiyyətindən məlumat verilib.**





Tədbirdə çıxış edənlər bildiriblər ki, ulu öndər Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdi. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət edib. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas edib. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olub. Ömrünü xalqımızın, dövlətimizin tərəqqisinə həsr edən Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə milli maraqları və xalqın mənafeyini hər şeydən uca tutduğu, müstəqilliyimizin və dövlətçiliyimizin, demokratiyanın gücləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün yorulmadan, fədakarlıqla çalışdığı qeyd edilib.

Sonra unudulmaz lider Heydər Əliyev və akademik Zərifə xanım Əliyevanın həyat yolundan bəhs edən "Əsl məhəbbət haqqında" filmi nümayiş etdirilib.

## Bakının Baş planını 4 əsas prioritet təşkil edəcək



Bakı şəhərinin Baş planını 4 əsas prioritet təşkil edəcək. SİA-nın məlumatına görə, bunu Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev Memarlar İttifaqı İdarə Heyətinin Bakı Şəhər İcra Hakimiyyəti və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə "Bakının şəhərsalma inkişafı" mövzusunda keçirdiyi plenumda deyib. Onun sözlərinə görə, bu prioritetlər davamlı inkişafın təmin olunması məqsədilə şəhərin tarazlı zonalaşdırılması və ənənəvi mərkəzi ilə yanaşı, alternativ mərkəzlərin və alt-mərkəzlərin formalaşdırılması, ətraf mühitin regenerasiyası, ərazilərdən səmərəli istifadə və əhalinin rahat yaşayışının təmin edilməsi, milli-mədəni irsin və şəhərin memarlıq görkəminin qorunması, mədəni həyatın zənginləşdirilməsi, şəhər iqtisadiyyatının post-sənaye dövrünə mərhələli keçiddir.

# Daşkəsəndə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə ümumrayon tədbiri keçirilib

***Dünən Daşkəsən rayonunda icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, çoxsaylı YAP üzvlərinin, ağsaqqal və ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibəti ilə ümümrayon tədbiri keçirilib. Tədbir iştirakçıları ilk öncə rayonun mərkəzində ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, əziz xatirəsi böyük ehtiramla yad edilib.***





Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən fotolara və eksponatlara baxış keçiriblər. Rayon icra hakimiyyətinin iclas zalında davam edən tədbir Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycanın inkişafı və müstəqilliyi naminə gördüyü işlərdən, apardığı mübarizələrdən bəhs edən "Böyük ömrün anları" filmi nümayiş etdirilib.

Sonra müasir Azərbaycanın memarı, qurucusu və xilaskarının ölkəmiz üçün tarixi, əvəzsiz xidmətlərindən, respublikamızın sabitliyi və dinamik inkişafında qoyduğu bünövrədən danışan Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində olan bugünkü inkişafın, məhz Onun adı ilə bağlı olduğunu bildirib: "Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycanın rəhbəri təyin olunanda, ölkəmiz keçmiş İttifaq respublikaları içərisində sənaye və kənd təsərrüfatının ümumi inkişaf səviyyəsinə, gəlirinin həcminə və əmək məhsuldarlığının artım sürətinə, habelə, əhalinin yaşayış səviyyəsinə görə geridə qalırdı. Azərbaycan qısa müddətdə aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi".

Ə.Abıyev onu da bildirib ki, dövlət müstəqilliyimizin ilk addımlarının, məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda atıldığının şahidi oluruq: "Onun rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı, üçrəngli Milli Bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 Yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina olundu, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq, sovet qoşun hissələri muxtar respublikadan çıxarıldı".

Rayon rəhbəri AXC-Müsavt cütlüyünün xəyanəti, təcrübəsizliyi və səriştəsizliyi Vətənimizi öz müstəqilliyini itirməsi, ərazisinin işğalı və parçalanması, dövlətçiliyinin məhv olması təhlükəsi qarşısında qoydu, şəhidlər xiyabanlarının yaranmasına səbəb olduğunu söyləyib: "Xalqın müxtəlif təbəqələrinin saysız-hesabsız müraciəti, təkidli tələbi və vəziyyətdən çıxış yolu tapmaqda aciz qalan iqtidarın özünün inadlı xahişi ilə Ulu Öndər Heydər Əliyev yenidən Azərbaycan hakimiyyətinin rəhbərliyinə gələrək, öz qayıdışı ilə dövlətimizin inkişafı və xalqımızın rifahının yaxşılaşmasına yönəlmiş taleyüklü problemlərin hamısını, qısa müddət ərzində, böyük müvəffəqiyyətlə həll etdi".

"Bu gün ölkə Prezidenti İlham Əliyev Ulu Öndərin yaratdığı strategiyanın əsasında Azərbaycan Respublikasını uğurla inkişaf etdirir"- fikrini qeyd edən Ə.Abıyev bildirdi ki, Prezident İlham Əliyev son 16 ildə islahatçı lider kimi alternativsiz rəhbərliyi tam təsdiqini tapdı: "Bu islahatların ölkəmizdə uğurla reallaşdırılmasına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da öz layiqli töhfələrini verir. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevi ölkədə bütün sahələr üzrə olan inkişafın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, Ona tam inanaraq güvənir. Möhtərəm Prezidentimiz İlham Əliyev Ulu Öndər haqqında belə demişdir: "Ulu Öndər, həmişə olduğu kimi, xalqa son müraciətində də düzgün proqnoz verdi. O, inanırdı və bildirdi ki, Onun davamçıları Onun görə bilmədiyi işləri görəcəklər, belə də oldu. Biz - Onun davamçıları bununla fəxr edirik. Fəxr edirik ki, Onun ideyalarını yaşadırıq. Fəxr edirik ki, müstəqilliyimizi möhkəmləndiririk və Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik".

Biz, daşkəsənlilər də Ulu Öndər Heydər Əliyevin ideyalarını, Möhtərəm Prezidentimiz İlham Əliyevin siyasi xəttini dəstəkləyərək, var gücümüzlə həyata keçiririk. Azərbaycan xalqının Ümummilli Lideri, müdrik rəhbər və Dahi Şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".

***R.KAMALQIZI***

# "Heydər Əliyev və Azərbaycan gəncliyi"

***Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatında gənclər birliyi ilə birgə "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda dəyirmi masa keçirilib.***



Dəyirmi masanı giriş sözü ilə rayon İdman və Gənclər İdarəsinin sədri, YAP Balakən rayon təşkilatı idarə heyətinin üzvü Rasim Paçalov açaraq, müstəqil Azərbaycanın gələcəyinin qurucuları olan gənclik Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə öz dəst-xətt təşəkkülünü tapmış, gələcək proqramını müəyyən etmişdir: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir".

Tədbirdə məruzə ilə çıxış edən YAP Balakən rayon təşkilatının gənclər birliyinin sədri Nurlan Şibliyev Ulu Öndərin həyatına nəzər salmış, Onun Azərbaycan gəncliyi üçün etdiyi tövsiyələri və gördüyü işləri ön plana çəkmişdir.

Dəyirmi masada çıxış edən gənclərdən Aynur Omarova, Fuad Mikayılov, Nərgiz Hacıxanova, Günel Hudulova, Könül Rüstəmova müstəqillik illərində Azərbaycan gənclərə göstərilən diqqət və qayğıdan, gənclərə rəhbər vəzifələrin etibar edilməsindən və onların bu etimadı ləyaqətlə doğrultmalarından söhbət açıblar. Çıxışlarda vurğulanıb ki, Azərbaycan gəncliyi dünyanın ən xoşbəxt gəncləridir. Çünki bu gün gənclərimiz dünyanın ən mötəbər ali məktəblərində təhsil almaqla, müstəqil Azərbaycanı, onun gəncliyini ləyaqətlə təmsil etməklə yanaşı, həm də dünyada Azərbaycan gəncliyinin intellekt səviyyədə olduqlarını nümayiş etdirirlər.

Tədbirin sonunda rayonda keçirilən "Heydər Əliyev-96" inşa müsabiqəsinin qalibləri Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***R.HÜSEYNOVA***

# YAP Nəsimi rayon təşkilatı Ümummilli Liderin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tədbir keçirib

***Məlumdur ki, hər il 10 may tarixində ölkəmizdə görkəmli dövlət xadimi, müasir dövlətimizin qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi hörmətlə yad edilir.***



Bu gün Yeni Azərbaycan Partiyasının banisi və yaradıcısı Ulu Öndər Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilmişdir. Ulu Öndər Heydər Əliyevin sarsılmaz polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaz xidməti, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi qoyulmuşdur. Məhz Onun inkişaf strategiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirə bilmiş, zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Azərbaycan dövlətçiliyini, xalqımızın müstəqilliyini əbədi yaşatmaq üçün Heydər Əliyev irsi, Onun dövlət idarəçiliyi təcrübəsi misilsiz mənəvi xəzinədir. Bu səbəbdən, Ümummilli Liderimizin zəngin irsi dərindən öyrənilməli və daim aşılanmalıdır.



Bu məqsədlə, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı bu il də, ənənəvi olaraq, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş silsilə tədbirlər keçirir. Bu tədbirlər çərçivəsində YAP Nəsimi rayon təşkilatı və onun gənclər birliyinin fəalları mayın 7-də Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

***NƏZAKƏT***

# Yaxın qohumları Əli Kərimlini rüsvay etdilər

*Kərimovlar nəslinin nümayəndələrinin keçirdiyi mətbuat konfransında AXCP sədrinin şəxsi həyatı və fəaliyyəti ilə bağlı maraqdoğurucu faktlar açıqlandı*

***AXCP sədri Əli Kərimlinin əmisi oğlanları, kərimovlar nəslinin ağsaqqalları və qohumları mətbuat konfransı keçiriblər. “Səs” qəzeti mətbuat konfransında çıxış edən kərimovlar nümayəndələrinin fikirlərini müəyyən ixtisarlarla oxucuların diqqətinə çatdırır.***

Kərimovlar nəslinin ağsaqqalı, “Azərbaycan fermeri” qəzetinin baş redaktoru Nuhəli Kərimov mətbuat konfransı keçirməsinin səbəb və məqsədi ilə bağlı danışarkən deyib:




- Mətbuat konfransını keçirməkdə məqsədimiz budur ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətə, əhalinin rifahının yüksəlməsinə, ümumiyyətlə, Azərbaycanın malik olduğu uğurlara qarşı bir qrup insan mənfi münasibət bildirir, qərəzli mövqedən çıxış edirlər. Bunun da başında duran AXCP sədri Əli Kərimlidir ki, onun antimilli siyasi fəaliyyəti yaxın qohumları tərəfindən qəzəblə qarşılanır və biz bu konfransı keçirməklə, münasibətimizi bildirmək niyyətindəyik. Onun bu hərəkətləri heysiyyatımıza toxunur. Qəzəbimizə səbəb ölkəmizdə hökm sürən əmin-amanlığa, ictimai-siyasi sabitliyə xələl gətirmək niyyətində olan insanların xəbis xisləti, anti-Azərbaycan mövqeyidir. Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən islahatlar xalqımızı xoşbəxtliyə aparır, ölkəmizin dünya birliyindəki mövqeyini daha da möhkəmləndirir. Respublikamızda əldə olunan ictimai-siyasi sabitliyi, təhlükəsizliyi qorumaq təkcə hökumətin deyil, hər bir azərbaycanlının borcudur. Bu uğurlarımızı gözü götürməyən qüvvələrin haqsız mövqeyi bizi narahat etdiyinə görə, qohumlarımla, nəslin ağsaqqalı olaraq, bir yerə yığışıb etirazımızı bildirmək üçün qərar verdik. Dövlətimizin və xalqımızın inkişafı üçün bir olmaq lazımdır. Əli Kərimli hazırda respublikamızda sabitliyi pozmaq, anarxiya yaratmaq üçün öz şəxsi məqsədlərinə görə fəaliyyət göstərir. Bu gün Azərbaycan dünyanın sürətlə inkişaf edən dövlətlərindəndir. Azərbaycanda olan mövcud durumu, aparılan dövlət siyasətini və inkişafı görmək lazımdır. Əgər bunu görə bilmirsənsə, deməli, korsan. Ə.Kərimlinin apardığı antimilli siyasət Azərbaycan xalqına qarşı düşməncilik siyasətidir. Ə.Kərimli erməni və ermənipərəst qüvvələrin diktəsi ilə ölkəmizdə ictimai-siyasi sabitliyi pozmağa çalışır. O və onun havadarları Azərbaycan xalqının xoşbəxtliyinə təhlükə yarada biləcək məkrli siyasət həyata keçirirlər. Əlbəttə ki, bu münasibət bizim - qohumların qəzəbinə səbəb olur. Onun bu hərəkətləri yolverilməzdir. Bu gün mətbuat konfransında iştirak edən Ə.Kərimlini əmisi oğlanları və yaxın qohumlarının hər biri kəndimizin 20-30 nəfər insanını təmsil edir. Onlar da bizimlə birgə öz münasibətlərini və fikirlərini ifadə edəcəklər. Saatlı rayonunun Azadkənd kəndindən gəliblər. Əli Kərimli də həmin kənddəndir. Kərimovlar nəslinin ağsaqqalı kimi mən onun hərəkətlərini bizim nəslin ünvanına ləkə kimi qəbul edirəm. Onun qohumları və əmisi uşaqları Azərbaycanda həyata keçirilən dövlət siyasətini dəstəkləyir. Ölkəmizin inkişafı, aparılan tikinti-abadlıq və yenidənqurma işləri göz qabağındadır. Azərbaycan bu gün müstəqil dövlət kimi həm ictimai-siyasi sabitliyin davamlı olmasına, həm iqtisadi inkişafına, həm də insanların həyat səviyyəsinin yüksək olmasına görə bir çox dövlətlər üçün nümunədir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadi, siyasi, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənib.

**Uğur Kərimov,**
**AXCP sədri Əli Kərimlinin əmisi nəvəsi:**



- AXCP sədri Əli Kərimlinin gəncləri dağıdıcı mitinqlərə, dövlətə qarşı xəyanətkar əməllərə çağırması, xarici himayədarlarının sifarişlərini yerinə yetirərək ölkədə çaşqınlıq yaratmaq cəhdi bizdə - onun yaxın qohumlarında da ikrah hissi oyatmışdır. Biz onun əməllərinə etiraz edirik. Azərbaycanın uğurlarına, Cənab Prezidentin müdrik siyasəti nəticəsində reallaşan inkişafa kölkə salmağa cəhd etsələr də, buna nail ola bilməzlər. Biz gənclər olaraq Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasi xətti dəstəkləyir və ətrafında sıx birləşmişik.

## AZƏRBAYCANDA XALQLA-İQTİDAR ARASINDA GÜCLÜ, SARSILMAZ BİRLİK VAR VƏ BUNU KİMSƏ SARSIDA BİLMƏZ

**AĞAVERDİ ŞƏMMƏDOV,**
**AXCP sədri Əli Kərimlinin əmisi nəvəsi:**



- Hər bir Azərbaycan vətəndaşı ölkəmizin iqtisadi gücü və qüdrətinin ilbəil artmasının şahidi olur, bu iqtisadi inkişafın nəticələrini hər bir vətəndaş özünün həyat səviyyəsinin yüksəlməsində hiss edir. Dövlət başçısı tərəfindən həyata keçirilən islahatlar və layihələr Azərbaycan əhalisi tərəfindən yüksək qarşılanır. İctimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkəmizdə bütün sahələrdə əldə edilən müsbət nəticələr insanların firavan həyatını təmin edib. Həqiqətən də, Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar vətəndaşına olan diqqət və qayğının göstəricisidir. Görülən bu və ya digər işlərin davamı olaraq, bu günlərdə dövlət başçısının tapşırığına əsasən, əhalinin sosial rifahının daha da gücləndirilməsi məqsədilə Azərbaycanda təbii qazın istifadə limiti də artırılıb. Belə ki, əhalinin aztəminatlı hissəsinin maddi vəziyyətinin yaxşılaşdırılması baxımından mavi qazın illik satış tarifi 1700 kub metrdən 2200 kub metrədək yüksəldilib.

Bildiyiniz kimi, bu gün dünyada olduqca gərgin siyasi proseslər gedir. Yaxın Şərqdə baş verənlər hər kəsin gözü qarşısındadır. Dünyanın əksər ölkələrində aclığın və səfalətin baş alıb getdiyi, ictimai sabitliyin pozulduğu bir zamanda Azərbaycanda hər şey təqdirəlayiqdir. Heç kəsin bu inkişafımıza ləkə salmağa, sabitliyi pozmağa haqqı yoxdur. Biz bu sabitliyi qoruyub-saxlamalıyıq. Amma Əli Kərimli və onun havadarları, antimilli qüvvələr bu sabitliyi pozmağa çalışırlar. Onlar ölkəmizin uğurları ilə barışmaq istəmirlər. Amma unutmasınlar ki, Azərbaycanda xalqla iqtidar arasında güclü, sarsılmaz birlik var və bunu kimsə sarsıda bilməz.

## ƏLİ KƏRİMLİ VƏ HAVADARLARI YAXŞI BİLİRLƏR Kİ, FƏALİYYƏTLƏRİ İLƏ XALQDAN HEÇ BİR DƏSTƏK ALA BİLMƏYƏCƏKLƏR

**Sadiq Kərimov,**
**AXCP sədri Əli Kərimlinin əmisi oğlu:**



- Əli Kərimlinin apardığı antimilli siyasəti Azərbaycan xalqına qarşı düşməncilik siyasətidir. Əli Kərimli və havadarları yaxşı bilirlər ki, fəaliyyətləri ilə xalqdan heç bir dəstək ala bilməyəcəklər. Bu gün ölkəmizin sürətli inkişafını, ictimai-siyasi sabitliyi gözü götürməyən qüvvələr pozmağa çalışsalar da, buna müvəffəq ola bilməyəcəklər. Bu gün ölkəmizdə çox ciddi islahatlar aparılır. Prezident İlham Əliyev ölkədə sosial rifah və sabitliyin təminatını daim diqqətdə saxlayır. Ölkəmizin hər yerində geniş layihələr reallaşır. Ən ucqar kəndlərimizdə belə insanlar qaz və işıqla təmin olunublar, yeni yollar salınıb. İnsanların rifahı gündən-günə yüksəlir. Mən, həqiqətən də, Əli Kərimlinin törətdiyi bu əməllərə görə narahatam. Dövlətimizdəki bu qədər nailiyyətlərə, qazandığımız uğurlara, qələbələrə göz yummaq olmaz. Hər bir azərbaycanlını bu inkişaf qürurlandırır.

## AZƏRBAYCAN XALQI ƏLİ KƏRİMLİNİN VƏTƏN ÜÇÜN NƏ QƏDƏR YARARSIZ OLDUĞUNU GÖRÜR VƏ BİLİR

**Rafail Kərimov,**
**AXCP sədri Əli Kərimlinin əmisi oğlu:**

- Son illərdə Azərbaycanın güclü infrastruktur təminatına malik ölkəyə çevrilməsi, qeyd olunduğu kimi, qazlaşdırma sahəsində də qabarıq şəkildə nəzərə çarpır. İndiyədək respublikanın bütün regionlarında genişmiqyaslı qazlaşdırma layihələri həyata keçirilib ki, bunun da sayəsində ölkənin bütün şəhərlərinin mavi yanacaq təchizatına nail olunub. Prezidentin qətiyyətli siyasi iradəsi ilə Azərbaycanın zəngin qaz potensialından ölkə əhalisi bəhrələnir. İnsanların sosial müdafiəsinin gücləndirilməsi hesablanmış islahatlar sosial sahədə inqilabi dəyişikliklərə gətirib çıxarır. Görülən işlərə ləkə salmaq, dövlət əleyhinə öz şəxsi mənafeyi üçün kampaniya aparmaq ermənipərəstlikdir. Azərbaycan xalqı Ə.Kərimlinin bu Vətən üçün nə qədər yararsız olduğunu görür və bilir. Ona görə də, onun çağırışına və müraciətinə əhəmiyyət verən yoxdur. Bu insan, öz şəxsi mənafeyi üçün nələr etmir? Yalnız məqsədlərini həyata keçirmək üçün çalışır və qarayaxma kampaniyası aparır. Bu antimilli ünsür qrant şəklində aldığı çirkli pullar hesabına şəxsi maraqlarını reallaşdırır. Yüksək məbləğdə qrantları mənimsəmək üçün isə bacardığı qədər ermənipərəst qüvvələrə xidmət edir.



## ƏLİ KƏRİMLİNİN TEZ-TEZ MİTİNQ ÇAĞIRIŞI ETMƏSİ İCTİMAİYYƏT ARASINDA QƏZƏBLƏ QARŞILANIR

**Taleh Şəmmədov,**
**AXCP sədri Əli Kərimlinin əmisi nəvəsi:**



- Əli Kərimli gəncləri, vətəndaşları dağıdıcı mitinqlərə, dövlətə qarşı etiraz aksiyası keçirməyə çağırsa da, insanlar bu aksiyaların keçirilməsinə əsas olmadığını yaxşı bilirlər. Azərbaycanda hər kəs rahat bir şəraitdə yaşayır və öz işi ilə məşğuldur. Odur ki, heç kəs Əli Kərimlinin çağırışına əhəmiyyət vermir. Onun sözlərinə inanan belə yoxdur. Ağıllı və düşüncəli insanlar Azərbaycan reallıqlarını dərk edirlər. Xalq tərəfindən onun keçmiş fəaliyyəti və bugünkü təxribatçı əməlləri pislənilir. Xalq tərəfindən dəstəyini tapa bilmədiyi üçün o, cürbəcür təxribat xarakterli hərəkətlərə əl atır. Bugünkü gündə xalqımız və dövlətimiz üçün sabitlik mühiti vacib məsələdir. Belə bir məqamda Ə.Kərimlinin tez-tez mitinq çağırışı etməsi, cürbəcür təxribatlara əl atması ictimaiyyət arasında qəzəblə qarşılanır.

Ardı Səh. 14

# Yaxın qohumları Əli Kərimlini rüsvay etdilər

*Kərimovlar nəslinin nümayəndələrinin keçirdiyi mətbuat konfransında AXCP sədrinin şəxsi həyatı və fəaliyyəti ilə bağlı maraqdoğurucu faktlar açıqlandı*

Əvvəli Səh. 13

### ƏLİ KƏRİMLİ AZƏRBAYCANIN UĞURLARINA QISQANCLIQLA YANAŞDIĞINA GÖRƏ CƏMİYYƏT TƏRƏFİNDƏN QƏBUL EDİLMİR

**Elxan Zahidov,**
**AXCP sədri Əli Kərimlinin əmisi nəvəsi:**



- Son illərdə Azərbaycan dünyada sürətlə inkişaf edən dövlətə çevrilib. Ölkəmizin dinamik inkişafı təmin edilib. Azərbaycanın belə uğurlara nail olduğunu görən xalqımız Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Bütün dünya Azərbaycandakı inkişafdan danışdığı halda, Əli Kərimli bunları görmək istəmir. Mən bunu paxıllıqdan başqa bir şey adlandırmazdım. Azərbaycanın bu uğurlarına qısqanclıqla yanaşdığına görə, o, bu gün cəmiyyət tərəfindən qəbul edilmir.

### AXCP SƏDRİNİN ANTİMİLLİ FƏALİYYƏTİNİ HEÇ KƏS DƏSTƏKLƏMİR

**NUHƏLİ KƏRİMOV,**
**AXCP sədri Əli Kərimlinin əmisi oğlu:**

- Əli Kərimli siyasətdən uzaq olan adamdır. Onun apardığı siyasətdə bir dağıdıcılıq var, cinayət var. Mən ona demişəm ki, gəl gedək kəndimizə, bacardığın bir iş ilə məşğul ol. Hesab edirik ki, belə mənasız hərəkətlər etməkdənsə, kəndə gəlib səmərəli işlə məşğul olsun, bacardığı bir işin qulpundan yapışsın. Kərimovlar nəslinin ağsaqqalı olaraq, əminliklə deyirəm ki, vaxt gələcək, Azərbaycan xalqı onu cəzalandıracaq. Əli Kərimlinin siyasi arenadan getməyi məsləhətdir. Bu gün bura gələn yaxın qohumları kəndimizdəki insanlarla görüşüb, onların fikirlərini də burada çatdırırlar. AXCP sədrinin antimilli fəaliyyətini heç kəs dəstəkləmir.

### AZƏRBAYCAN DÖVLƏTİNİN VƏ XALQININ MİLLİ MARAQLARINI ÜSTÜN TUTAN CƏNAB İLHAM ƏLİYEVİ BÜTÜN XALQIMIZ DƏSTƏKLƏYİR

**Dilqəm Səmədov,**
**AXCP sədri Əli Kərimlinin qohumu:**



- Yaşadığımız kəndin böyük hissəsi bir-biri ilə qohumdur. Doğrusu, belə bir əmin-amanlıq və bolluq dövründə Əli Kərimlinin insanları dövlətə qarşı etiraz aksiyalarına çağırması məni təəccübləndirir. Onu xalq yaxşı tanıyır, hansı əməllərlə məşğul olduğunu da bilirlər. Başı Azərbaycanın düşmənlərinin çirkli pullarına qarışıb. Azərbaycanın uğurlarına, Cənab Prezidentin müdrik siyasəti nəticəsində reallaşan inkişafa kölgə salmağa cəhd etsə də, buna nail ola bilməz.

Azərbaycan dövlətinin və xalqının milli maraqlarını hər şeydən üstün tutan Cənab İlham Əliyevi bütün xalqımız dəstəkləyir.

**Cabir Həsənov,**
**AXCP sədri Əli Kərimlinin əmisi nəvəsi:**



- Bu antimilli ünsür qrant şəklində aldığı çirkli pullar hesabına şəxsi maraqlarını təmin edir. Yüksək məbləğdə qrantları mənimsəmək üçün isə bacardığı qədər ermənipərəst qüvvələrlə əlaqə yaradır. Əli Kərimli Azərbaycana düşmən olan qüvvələrin əlində alətə çevrilib. Ölkədə iğtişaşlar törətmək, etiraz aksiyaları təşkil etmək, icazəsiz mitinqlər keçirməyə çalışır. Azərbaycan xalqı antimilli qüvvələri yaxşı tanıyır. O, hərəkətləri ilə özünü gözdən salıb.

Ölkə başçısı İlham Əliyev respublikamızda uğurlu daxili və xarici siyasət həyata keçirir, xalqın istəyinə uyğun fərman və sərəncamlar imzalayır. Cənab Prezident ölkəmizin ən ucqar yerlərinə gedir, insanlarla görüşür və onların problemləri ilə maraqlanır.

**İbrahim Haçalıyev,**
**AXCP sədri Əli Kərimlinin qohumu:**



- Biz Əli Kərimli və onun ətrafında olanların xalqa düşmən kəsildiklərini bilir və pozucu fəaliyyətlərini görürük. Ona görə də, qətiyyətlə onların əməllərini pisləyirik. Söz yox ki, Əli Kərimli öz ağlı və düşüncəsi ilə hərəkət etmir. Onu çörəyini yeyib, suyunu içib, boya-başa çatdığı dövlətə və xalqa düşmən kəsilməyə məcbur edən xarici anti-Azərbaycan qüvvələr var. Hansı ki, bu qüvvələr Əli Kərimli kimilərə maddi və mənəvi dəstək göstərirlər. Ancaq Əli Kərimli və ona dəstək olan qüvvələr öz məkrli əməllərinə nail ola bilməyəcəklər. Çünki ölkəmizdə möhkəm əsaslara malik xalq-hakimiyyət birliyi, başlıcası, Azərbaycan xalqının Prezident İlham Əliyevə böyük inamı və sədaqəti mövcuddur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Təlxək satqınların davası...

*<u>Sərdar Cəlaloğlu:</u> "Siyasiləşməmiş ziyalılar siyasətdə təlxək roluna düşür"*

***Uzun müddət idi ki, AXCP sədri Əli Kərimlinin "Milli Şura"nın rəhbəri Cəmil Həsənlini özündən kənarlaşdırması ətrafında "baş sındırdığı" barədə informasiyalar dolaşırdı. Bu gün də yenidən bu fikrə düşən Ə.Kərimli bildirir ki, "birlik" mitinqinin baş tutmamasının səbəbi elə bu qoca professordur: "Əl-ayağa dolaşmaqdan savayı bir xeyri yoxdur".***

Görünür, Ə.Kərimli C.Həsənlinin əlindən lap boğaza yığılıb. C.Həsənlidən yaxa qurtarmaq üçün "nə şiş yansın, nə kabab" prinsipini işə salan AXCP sədri hətta qoca professora yenidən istefa ərizəsini də yazdırıb, ancaq C.Həsənli də "Milli Şura"dan elə bərk-bərk yapışdığı üçün deyib ki, Ə.Kərimli başqa bir yol axtarışındadır. C.Həsənli özü də yaxşı bilir ki, Ə.Kərimli hansı "yuvanın quşu"dur və çörəyi də dizinin üstündədir. Bu yerdə deyiblər: kor-kora kor deməsə, bağrı çatlar. Elə ikiniz də bir bezin qırağısınız. Çünki bu günə qədər dövlət əleyhinə səslənən hər bir bəyanat, hər bir çıxış arxasında Ə.Kərimli ilə C.Həsənli dayanıb. Ancaq bütün bunlara baxmayaraq, Ə.Kərimli "net ki, net" deyərək, nəyin bahasına olursa-olsun, "ağır" yük olan C.Həsənlini, getməsi üçün altdan-altdan iş görməyi planlaşdırıb. Xüsusilə də, son vaxtlar "REAL" sədri İlqar Məmmədovun Ə.Kərimliyə ünvanladığı ultimatumlara qarşı mitinq keçirmək təklifinə etiraz edən "Milli Şura" sədrinin hərəkəti AXCP sədrini təbindən çıxarıb. Ona görə də, Ə.Kərimli C.Həsənlinin istefa-



sından dərhal sonra "Milli Şura"ya da sədr keçməyi qətiləşdirib. Həmçinin, dağılmaqda olan AXCP-ni, məhz "Milli Şura"nın sayəsində "ayaqda" saxlamaq istəyirdir.

### <u>Sərdar Cəlaloğlu:</u> "Əlisi də, Cəmili də siyasətçi yox, təlxəklərdir"

ADP sədri Sərdar Cəlaloğlu Ə.Kərimlinin mayın 5-də baş tutmayan "müxalifətin birlik" mitinqini mayın 11-də keçirmək istəyindən əsəbləşərək, bildirib ki, "müxalifətin birlik" yox, dəllərin və təlxəklərin mitinqi kimi qiymətləndirib: "Bir də, C.Həsənli nə vaxtdan müxalifətçi və "lider" olub? Onların hamısı təlxəklərdir: "Belə bir fikir var ki, siyasiləşməmiş ziyalılar siyasətdə təlxək roluna düşür. Adsız dəyirmanda xoruz banlar, ay Cəmil Həsənli. Ə.Kərimli bütün "titullar"a satqınçılıq, yaramazlıq, hiyləgərlik və... daha nələrin sahibidir. C.Həsənli, sən professor olsan da, siyasətin nə olduğunu bilmirsən. Eyni bezin qırağısınız. Bir faktı xatırlatmaq kifayətdir. Belə ki, 2005-ci il parlament seçkisində AXCP-yə mandat verilərkən, Ə.Kərimlinin müavini olan C.Həsənli isə AXCP-dən imtina etmədi, gedib parlamentdə oturdu. Baxın, indi bu adam mənə qarşı ittiham irəli sürür ki, guya mən müxalifətçi deyiləm. O adam ki, bir mandata görə mənsub olduğu təşkilatdan, ideyasından, yolundan imtina edirsə, hansı əsasla mənim müxalifətçiliyimi şübhə altına alır? Çünki C.Həsənlinin siyasətin və müxalifətçiliyin nə olduğundan xəbəri yoxdur. O, elə bilir ki, kiminsə adını çəkmək müxalifətçilik deməkdir. Bir də, C.Həsənliyə kim haqq verib ki, kimin müxalifət, kimin müxalifətçi olmadığını müəyyən etsin? Belə bir atalar sözü var ki, "keçi olmayan yerdə, qoyun da Əbdülkərim ağadır". C.Həsənli "Milli Şura"nın rəhbəri yox, Ə.Kərimlinin bir vasitəsidir". Bir də mən ondan fərqli olaraq, çalıquşu kimi bu koldan o kola tullanan adam deyiləm. Nə qələr başı üstündədir sussun!"

***Rəfiqə HÜSEYNOVA***

# İnsan və şəxsiyyət hüquqlarının əsas mahiyyəti

***İnsan-hüquq və azadlıqları bir çox əsrlər boyu və elə bu gün də bəşəriyyətin həyat rəmzi olmuşdur. İctimai təzahür olaraq bu hüquq və azadlıqların forma, norma, institut, prosedur və ictimai həyat münasibətlərində başa düşülməsi və ələlxüsus da, əməli cəhətdən tətbiq edilməsi yetərincə mürəkkəb problemdir.***

İnsanın hüquq və azadlıqları ideyasının fəlsəfi və hüquqi mənbələri bərabər ölçülü azadlıq ideyasının yaranmasından tutmuş antik dövrün insanın təbii hüquqlarının böyük kəşfi konsepsiyasının inkişafına qədər "müəyyən bərabər ölçü" anlayışıdır. Ümumilikdə, həm hüquq, həm də ayrı-ayrı insanların hüququ bütün subyektlər üçün eyni dərəcədə icazə verilən və qadağan edilən, bərabər azadlıq ölçüsünü ifadə edən ümumi davranış normaları olmadan mümkün deyil. Bu cür bərabər ölçü olmayan yerdə hüquq da yoxdur. Bu baxımdan, bütün iş və hərəkətlərdə müəyyən "ölçü"yə "orta səviyyə"yə riayət etməyin zəruriliyi haqqında bir sıra dahi qədim yunan filosoflarının məşhur kəlamlarını qeyd etmək yerinə düşər: "Orta yol ən yaxşı yoldur" (Kleobul), "Ölçüdən yuxarı heç bir şey" (Solon) və s. yoxdur.

Haqq-ədalət və hüququn obyektiv norması haqqında suallara cavab axtarışı pifaqorçular tərəfindən də (e.ə. VI-V əsrlər) davam etdirilmişdir. Pifaqorçular insanın təbii hüquqları haqqında sonrakı təsəvvürlər üçün çox mühüm olan "ədalət - başqasına əvəzini verməkdən ibarətdir" kimi fikir formalaşdırmışdılar. Pifaqorçuların baxışlarının yeniliyi və əhəmiyyəti ondan ibarət idi ki, onlar "lazımi ölçü" və "ədalət" anlayışları altında məlum rəqəm nisbətini, başqa sözlə, nəsə bir bərabərlik nəzərdə tuturdular. Bu, sonralar insanların hüquq bərabərliyi ideyasının yaranmasında mühüm rol oynadı.

Qədim Yunanıstanda hüquq və insan hüquqlarının nəzəri konsepsiyalarının bərqərar olması polislərin təbii-hüquqi əsaslarının və qanunların axtarışları məcrasında inkişaf edirdi. Bütün insanların təbii bərabərliyi və azadlığı ideyası ilk dəfə sofistlər tərəfindən söylənilmişdir (e.ə. V-IV əsrlər). Sofistlərin baxışlarının baza prinsiplərini Protaqor formalaşdırmışdır. Bu, aşağıdakı kimi ifadə olunur: "Bütün şeylərin - olan şeylərin olduğu kimi, olmayan şeylərin olmadığı kimi ölçüsü insandır". İnsana bütün şeylərin meyarı kimi bu cür baxılması miqyas və ölçü qismində onun insani deyil, məhz ilahi başlanğıcının əhəmiyyətliliyi haqqında ənənəvi təsəvvürlərdən kəskin fərqlənir. Protaqorun əsas demokratik ideyası ondan ibarətdir ki, dövlətin mövcudluğu onun bütün üzvlərinin insan ləyaqətində bərabər iştirakını nəzərdə tutur. O, buraya ədalət, idrak və mömünlüyü aid edirdi.

Platona görə, ədalət "lazımi ölçünü", başqa sözlə, müəyyən bərabərliyi nəzərdə tutur. Özü də o, "həndəsi bərabərliyi" (ləyaqət və yaxşılıq üzrə) və "hesab bərabərliyi"ni (ölçü, çəki və rəqəmlərin bərabərliyi) fərqləndirir. Qeyd edir ki, əgər "bərabər ölçü"yə riayət edilməzdisə, qeyri-bərabərliklər üçün bərabərlik qeyri-bərabər olardı.

Bu fikirlər sonradan Aristotelin ədalətin iki növü: bərabərləşdirici və bölüşdürücü növləri haqqındakı təlimində inkişaf etdirilmişdir. Bölüşdürücü ədalət - cəmiyyətin üzvləri arasında bölünə bilən hər bir şeyin (hakimiyyət, şərəf və s.) bölüşdürülməsi zamanı ədalətin təzahürüdür. Bərabərləşdirici ədalət mülki-hüquqi sövdələşmələr sahəsində tətbiq edilir. Aristotelə görə, bütün vətəndaşlar üçün ümumi olan nemətlərin ləyaqətlə, başqa sözlə, onların ümumi işə töhfəsinə və ya payına görə bölünməsi bölüşdürücü ədalət prinsipidir. Filosofun fikrincə, bütövlükdə, hüquq və fərdin hüquqları yalnız siyasi xarakter daşıyır və fəqət, dövlətdə, yəni polis şəraitində mümkündür.

Bu halda, azad insanların birliyindən ibarət olan dövlət nəzərdə tutulur. Aristotel qeyd edir ki, hakimiyyətin despotcasına təşkil olunduğu dövlətdə hüquqdan yalnız şərti olaraq danışmaq mümkündür. Alimə görə, insanın təbii hüquqları, fəqət, siyasi subyektin, başqa sözlə, polisin vətəndaşının hüquqları kimi real mövcuddur. Şəxsiyyətin xüsusi mülkiyyət və fərdi ailə ilə bağlı hüquqlarının Aristotel tərəfindən müdafiə edilməsini (onun Platona qarşı polemikasında) xüsusi vurğulamaq lazımdır. Qeyd etmək lazımdır ki, bu gün sosial mənada, "azadlıq" və "insan hüquqları" terminləri ictimai həyatda, siyasətdə və politologiyada, hüquqşünaslıq elmində, konstitusiya və digər normativ aktlarda, incəsənət, publisistika və bədii ədəbiyyatda kifayət qədər geniş yayılmışdır. "Azadlıq" və "insan hüquqları" dövlət xadimlərinin ritorikasında, gənclik submədəniyyətində vacib atributlar sayılır. "Mütləq azadlıq" tərənnüm edilir və lənətlənir, onun qarşısında baş əyir və həm də onu müasir cəmiyyətin bir çox bədbəxtliklərinin səbəbkarı hesab edirlər. Azad insan, azad iradə, azad seçim, vətəndaşın hüquq və azadlıqdan, azad əmək, azad düçüncə, azad sevgi... İctimai təfəkkür və kütləvi mədəniyyətdə yəqin ki, "azadlıq" anlayışından daha cəlbedici, arzu olunan və eyni zamanda, daha çox təhrif olunan və eybəcərləşdirilən başqa bir anlayış yoxdur.

İ.V.Derqaçovun təbiri ilə desək, bəziləri üçün azadlıq - rəmzdir; digərləri üçünsə məqsəd deyil, vasitədir, o, həmçinin, mənəviyyatsız siyasi və şəxsi oyunlarda bir örtükdür. "Məhz buna görə də, azadlığını müxtəlif təfsirləri mövcuddur: seçilmişlər üçün elitar, şəxsiyyət tərəfindən onun ayrılmaz mülki hüquq və azadlıqlarının bir hissəsinin cəmiyyətə (dövlətə) verilməsi ilə əldə olunan azadlıq idealını təmsil edən kollektiv azadlıq və başqaları. Fikir və yanaşmaların bu cür fərqliliyi nəzərdən keçirilən təzahürlərin paradoksallığı ilə bağlıdır. Bir tərəfdən, həm ayrıca götürülmüş insanın, həm də, bütövlükdə, bəşəriyyətin harmonik inkişafının azadlıqdan kənarda olması heç cür təsəvvür olunmur, digər tərəfdən isə, abstrakt, yaxud hüdudsuz azadlıq, tarixdən də göründüyü kimi, istibdad və köləliyə gətirə bilər".

Bəşəriyyət hələ qədim dövrlərdən elə bir harmonik təşkil olunmuş cəmiyyət arzusunda olmuşdur ki, burada azad şəxsiyyət özünü tam olaraq gerşəkləşdirə bilsin. Aristotel yazırdı: "... Aydındır ki, ən yaxşı dövlət quruluşu olaraq elə bir quruluş qəbul edilməlidir ki, onun təşkili hər bir insana firavan və xoşbəxt yaşamaq imkanı yaratsın". Ayrı-ayrı dövrlərin böyük mütəfəkkirləri azadlıq problemi barədə düşünərkən, ideal ictimai quruluşun müxtəlif nəzəri modellərini yaratmışlar. Lakin çoxəsrlik praktik təcrübənin reallıqları və sosial-siyasi, fəlsəfi və hüquqi tədqiqatların nəticələri belə bir fikrə gətirir ki, gerçəkdən də azadlıq probleminin bir sıra ziddiyyətləri var. Bunlar cəmiyyətdə hüdudsuz azadlığın mütləq özünə tamamilə əks olan istibdada çevrilməsi ilə bağlıdır.

Yeri gəlmişkən, azadlıq paradoksları barədə mühakimə yürüdən Platon yazırdı: "... İfrat azadlıq, görünür, ayrı-ayrı adamlar üçün də, dövlət üçün də müstəsna köləlikdən başqa bir şey deyil". Müasir tədqiqatçılar tərəfindən azadlığın bu paradoksunu həll edə bilən universal cavab hələ bu gün də tapılmayıb.

Fikrimizcə, göstərilən ziddiyyətlərin səbəbləri əhəmiyyətli dərəcədə sosial və bioloji başlanğıcları özündə birləşdirən insan təbiətinin özündədir. Bunun nəticəsində şəxsiyyətin struktur xarakteristikası sosial-mədəni amillərlə tükənmir. Öz kökü ilə hansısa dərəcədə insan nəslinin qədim əcdadlarının həyat və fəaliyyətinin özəlliklərinə gedib çıxan və bioloji təkamüllə şərtlənən amillərlə müəyyənləşir.

İnsan təbiətinə toxunan Aristotel yazırdı: "Başqalarından hansısa asılılıqda olmaq və ağlına gələn hər şeyi etmək imkanının olmaması faydalı işdir, çünki hər kəsə öz arzusuna uyğun hərəkət etmək imkanının verilməsi, onu başqa insanlarda olan şər niyyətdən qoruya bilməz". İ.Kant insanın aqressiv təbiətindən danışarkən, qeyd etmişdir ki, insan azadlığının inkişaf prosesi ziddiyyətli xarakterə malikdir, ona antoqonizmlər xasdır. Onun fikrincə, ziddiyyətlərin kökü "insanın döyüşkən təbiətində" və onun aqressivliyindədir.

Epikür insanların fərdi azadlığının və qarşılıqlı təhlükəsizliyinin təminatı üçün ümumfaydalı müqavilə qismində dövlət və hüquq haqqında təsəvvürləri inkişaf etdirmişdir. Bu filosofun fikrincə, insan azadlığı öz həyat tərzinin şüurlu seçiminə görə onun məsuliyyəti deməkdir. İnsan azadlığı sferası - bu, onun özünə görə məsuliyyət daşıdığı sahədir. Epikürün qənaətincə, dövlətin başlıca məqsədi insanların qarşılıqlı təhlükəsizliyinin, onların bir-birinə ziyan verməməsinin təmin olunmasıdır. Bununla bağlı Epikür yazırdı: "Təbiətdən gələn ədalət - bir-birinə ziyan verməmək və ziyana dözməmək məqsədilə faydalılıq haqqında müqavilədir".

E.Sqreçç və V.Tambone yazırlar ki, Epikürün inamına görə, ədalət insanların bir-biri ilə münasibətində nəsə faydalı bir şey olduğundan müqavilə xarakteri daşıyır. Epikürün nəzəriyyəsində ədalət - onun qanunla münasibətləri fonunda dəyişkən məzmunlu (məkan, zaman və şəraitdən asılı olaraq) təbii hüquqdur. Bu hüquq qarşılıqlı münasibətlərdən əmələ gələn dəyişkən ümumi fayda qismində çıxış edir. Burada ədalət qanunun insanların dəyişən tələbatlarına və bununla birgə onların ədalətin özü haqqında dəyişən təbii təsəvvürlərinə uyğunluq meyarıdır. Epikürün dövlət və hüquqla bağlı müqavilə traktovkası insanların bərabərlik, azadlıq və müstəqilliklərini nəzərdə tutur.

Bununla yanaşı, azadlığın ziddiyyətlərinin səbəbləri, fikrimizcə, azadlığın öz təbiətində gizlənir. A.V.Stremouxoyenin qənaətinə əsasən, azadlıq öz formal əlamətlərinə görə hansısa şəkildə təbii ünsürlərə (od, su və s. kimi) bənzəyir. Azadlıq şərti olaraq əzəldən ideya olaraq ortaya çıxan mənəvi ünsür kimi nəzərdən keçirilə bilər. O, təbii ünsürlərə xas olan müstəsna ziddiyyətlər əlamətinə malikdir. Gerçəkdən də, insan həyatını susuz və odsuz təsəvvür etmək mümkün deyil. İnsan həyatı azadlıq olmadan da təsəvvür oluna bilməz. Lakin əgər bu gün insan bəzi təbii ünsürləri idarə etməyi az və ya çox dərəcədə öyrənmiş və onları özünə xidmət etməyə yönəltmişsə, mənəvi ünsürlərdə (azadlıq, kor-koranə inam) vəziyyət çox çətindir. İnsan gah qorxaraq və nifrət edərək onları rədd edir, gah da mövhumatçılıqla mütləqləşdirir və təsəvvür də etmir ki, bu cür kor-koranə mütləqləşdirmə hansı faciəli nəticələrə gətirə bilər. Naşı idarəçilikdən kənar olan kortəbiilik hökmən fəlakətli fəsadlara, qarşısıalınmaz bədbəxtliklərə səbəb olur. Belə ki, od yanğına, su daşqına, kor-koranə inam fanatizmə mübtəlalığa, azadlıq isə anarxiyaya və tiranlığa gətirib çıxara bilər.

Bu baxımdan, ortaya istər-istəməz azadlığın məhdudlaşdırılmasının zəruriliyi və bu sərhədlərin müəyyənləşdirilməsi qaydası ilə bağlı olan məsələlər çıxır. Məsələn, insanların azadlığını kim, nəyin əsasında, nə qədər və hansı yolla məhdudlaşdıra bilər? Bəs azadlığın məhdudlaşdırılma dərəcəsinin əsas meyarı nədən ibarətdir?

Bizə elə gəlir ki, tarixi dünyagörüşə malik olmadan, keçmişin və bu günün dahi mütəfəkkirlərinin əsərlərində əks olunan zəngin müdrikliklə ünsiyyətdə olmadan bu cür suallara cavab tapmaq mümkün deyil. Dünyəvi harmoniyaya çatmağın yolları haqqında düşünən ötən dövrlərin görkəmli filosofları bəşəriyyətin qarşısında insan mövcudluğunun köklü və əbədi problemlərini qaldırmışlar. Dünya ictimai fikir tarixinin dərindən öyrənilməsi insana dünyanın panoram görüntüsünü verir, əsl ali əxlaqi prınsipləri aşkarlayır, mövcud ziddiyyətlərin əsl səbəb və nəticələrini açmaqda kömək edir və nəticə etibarilə onların mümkün həlli yollarını göstərir.

Bu gün insanın cazibəli siyasi şüarların hipnozu ilə şəxsiyyətin hüquq və azadlıqları uğrunda kompromissiz mübarizəyə can atdığı bir zamanda, fikrimizcə, azadlığın təbiətinin mahiyyətini anlamadan, yüksək əxlaqi başlanğıclara doğru istiqamət götürmədən, bərabərliyin zəruriliyini dərk etmədən bu azadlıq ehtirasların coşmasına və özbaşınalığa apara bilər.

İndiyə qədər "azadlıq" sözünə müxtəlif təriflər verilmişdir. Bu sözə çeşidli mənalar verildiyini qeyd edən Ş.Monteskye "Qanunların ruhu" əsərində yazır: "Azadlıq" sözü qədər müxtəlif mənalar daşıyan və zəkalarda bu qədər müxtəlif təəssüratlar oyadan başqa bir söz yoxdur".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 8 may








## “Heydər Əliyev-96”

### *YAP Yevlax rayon təşkilatı məktəblilər arasında şahmat turniri keçirib*

***Yevlax rayonunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə silsilə tədbirlər davam etdirilir. Ulu Öndər Heydər Əliyevin 96-c ildönümü münasibəti ilə ümumşəhər məktəbliləri arasında keçirilən şahmat turnirinə yekun vurulub.***

Bildirilir ki, artıq neçə illərdir ki, YAP Yevlax rayon təşkilatı bu çempionatı ənənəvi şəkildə təşkil edir. Yarışda Yevlax məktəbliləri öz bilik və bacarıqlarını sınayırlar. Şahmat çempionatda iki yaş qrupunda 94 nəfərdən artıq məktəbli öz qüvvəsini sınayıb. Yarış İsveç sistemi ilə keçirilib. Yarışların keçirilməsində əsas məqsəd gənc nəsli Ulu Öndər Heydər Əliyev idealları ruhunda, Onun zəngin irsi işığında yeni üsul və metodlarla tərbiyə etmək, Onun dövlətçilik, azərbaycançılıq irsini, öyrənmək, öyrətmək, təbliğ etmək, bu ideyalardan faydalanmaq və həyatımızda istifadə etməkdir.

Tədbirdə YAP Yevlax şəhər təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, eləcə də Onun idmana qayğısı haqqında nitq söyləyib. Natiq Ümummilli Lider Heydər Əliyevin əsasının qoyduğu siyasi kursa sadiqlik nümayiş etdirilməsini, partiyanın Sədri İlham Əliyevin uğurlu daxili və xarici siyasət yürütməsini, Azərbaycan gəncliyinə və idmanın inkişafına diqqət və qayğı göstərməsini xüsusilə nəzərə çatdırıb.

Sonra Yevlax şəhər Gənclər İdman İdarəsinin rəisi Bünyamin Musayev yarış iştirakçılarını salamlayaraq, bildirib ki, Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları çox olub. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu var. O, qeyd edib ki, Ulu Öndər Heydər Əliyev irsinin təbliği və qorunması istiqamətində həyata keçirilən tədbirlər, xüsusi olaraq, məktəblilər arasında bu kimi tədbirlərin keçirilməsi Heydər Əliyev irsinin daha dərindən öyrənilməsinə bir töhfədir.

Yekunda qaliblər YAP Yevlax şəhər təşkilatının Fəxri Fərmanı və qiymətli hədiyyələri ilə təltif olunublar.

***Rövşən Nurəddinoğlu***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə II kurs tələbəsi Əliyeva Nərgizin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Məmmədli Nail Faik oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Binəqədidə “Xalqa bəxş edilmiş ömür” adlı tədbir keçirilib

***Dünən Binəqədi rayon icra hakimiyyətinin və YAP Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə rayon təşkilatında “Xalqa bəxş edilmiş ömür” adlı tədbir keçirilib.***



Tədbirdən öncə iştirakçılar Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binasının önündə ucaldılmış abidəsi önünə qızıl gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib. Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, Dahi Şəxsiyyət Heydər Əliyevin doğum gününün böyük sevinc hissi ilə qeyd olunması ölkəmizdə artıq bir ənənəyə çevrilib: “Ümummilli Liderin doğum gününün belə əhval-ruhiyyə ilə qeyd olunması, ümumilikdə xalqımızın dövlətə, dövlətçiliyimizə hörmət və ehtiramının bariz ifadələrindən biridir: “Tarixdə şəxsiyyət amili xalqların, dövlətlərin inkişafında əhəmiyyətli rol oynayır. Hər bir xalq lideri ilə tanınır”.



Rayon təşkilatının sədri onu da çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyev və son 16 ildə Onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev tarix yaradan şəxsiyyətlərdir. Ümummilli Liderin şah əsəri olan müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin təkmil islahatları ilə ən yüksək zirvələri fəth edir.

Tədbirdə çıxış edən “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu Ulu Öndər Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində müstəsna xidmətlərindən danışıb. Bildirib ki, Ulu Öndərin məqsədyönlü siyasəti və əzmkar fəaliyyəti nəticəsində Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub. H.Babaoğlu, həmçinin, onu da qeyd edib ki, müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndərin adı ilə bağlıdır.

Tədbirdə çıxış edən “İki Sahil” qəzetinin baş redaktoru, YAP Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünün hər birimizin həyatında önəmini xüsusi vurğulayıb: “Bu illər Azərbaycanın tarixinə, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur duya biləcəyi uğurları yazıb. Bu gün ölkəmiz həmin təməl üzərində daha da möhkəmlənir, qüdrətlənir, yeni-yeni hədəflərə doğru inamla addımlayır.”

V.Rəhimzadə Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etdikdən, daha dəqiq desək, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından bu günümüzə qədər uzanan davamlı inkişaf yolunu geniş şərh edərək bildirib ki, böyük şəxsiyyətlərin doğum günü olur, amma ölüm günü olmur. Onların ideyaları daim dövlətin və xalqın qarşısında yeni-yeni üfüqlər açır. Dahi Şəxsiyyət Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının əsasıdır.

Tədbirdə çıxış edən “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev bildirib ki, bu gün müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın qazandığı böyük uğurlar, məhz Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir: “Hər birimiz bugünkü firavan həyat və xoş gələcəyimiz üçün əbədiyaşar Ulu Öndərə borcluyuq. Ölkə həyatının bütün sahələrində nail olunan uğurlar böyük siyasi xadim Heydər Əliyevin adı, yüz illərə hesablanmış ideyaları ilə bağlıdır”. O, Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunduğunu, dövlətçiliyimizin məhv olmaq təhlükəsindən xilas edildiyini vurğulayıb. Ulu Öndərin hakimiyyəti dövründə respublikamızın hərtərəfli tərəqqisində misilsiz nailiyyətlər qazanıldığı, habelə ölkəmizin yüksək iqtisadi inkişaf tempi ilə irəliləməsinin, məhz Dahi Öndər Heydər Əliyev əməyinin nəticəsi olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Binəqədi rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev çıxışında bildirib ki, tarixdə şəxsiyyət amili xalqların, dövlətlərin inkişafında əhəmiyyətli rol oynayır: “Hər bir xalq lideri ilə tanınır. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünkü uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb”.

Qeyd edək ki, tədbirdə millət vəkili Kamaləddin Qafarov iştirak edib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası sıralarına yeni üzv qəbul edilmiş bir qrup şəxsə üzvlük vəsiqəsi təqdim edilib.

***ZÜMRÜD BAYRAMOV***


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov



Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600